YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 mart 2026-cı il, çərşənbə
№ 045 (7112)
Qiymәti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Dünyaya ortaq mesaj



## Azərbaycanla Türkiyə sıx təmasdadır

Bax səh. 2

## Azərbaycan-İran münasibətləri: səmimi qonşuluq, dialoq və iqtisadi əməkdaşlıq

Bax səh. 3

## Dünya Azərbaycana dəstək verir

Xəbər verildiyi kimi, martın 5-də səhər saatlarında İran ərazisindən Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana dron hücumu baş verib. Nəticədə Naxçıvan Beynəlxalq Hava Limanının inzibati binası zədələnib. Dronlardan biri Babək rayon Şəkərabad kənd tam orta məktəbin yaxınlığına düşərək partlayıb. Naxçıvana edilən dron hücumu zamanı 4 nəfər xəsarət alıb.

Azərbaycanın Naxçıvana edilən dron hücumu ilə bağlı mövqeyi kifayət qədər sərt oldu. Eyni zamanda, dünya dövlətləri və beynəlxalq təşkilatlar da bu hücumu qətiyyətlə pisləyərək ölkəmizə dəstək verirlər. Respublikamızla dərin həmrəylik ifadə olunur ki, bu da son illərdə Azərbaycanın beynəlxalq səviyyədə artan nüfuzunun göstəricisidir. Respublikamız xoş mərama əsaslanan siyasət həyata keçirir, hər zaman beynəlxalq hüquqa hörmətlə yanaşır, daim yeni həmrəylik təşəbbüsləri irəli sürür ki, bütün bunlar da dünyada böyük təqdirlə qarşılanır.

Azərbaycan xoş mərama, beynəlxalq hüquqa və qonşuluq prinsipinə əsaslanan missiyasını İran müharibəsi ilə əlaqədar da davam etdirir. İlk növbədə onu vurğulamaq yerinə düşər ki...

Bax səh. 2

## Prezidentin tapşırığı ilə...
### Ölkəmizdən İrana humanitar yardım göndərilib



Bax səh. 3

## Kredit faizlərini dövlət ödəyəcək

Bax səh. 4

## Neft ixrac edən ölkələrin gəlirləri artsa da...

Bax səh. 5

## İkinci neft bumu üçün yeni imkanlar

Bax səh. 5

## Müharibənin yeni siması

Bax səh. 7

## Milli kadr siyasəti yeni mərhələdə

Sürətlə dəyişən dünyada yaşayırıq. İnnovasiyalarla, informasiya-kommunikasiya texnologiyalarının üstün inkişafı ilə səciyyələnən 4-cü sənaye inqilabı davamlı olaraq ölkələri, insanları yeni transformasiyalarla üzüzə qoyur. Belə bir şəraitdə meydana çıxan çağırışlar dövlətlərin idarəçiliyinin adekvat şəkildə tənzimlənməsini, bu sahədə zəruri islahatların aparılmasını, xüsusilə də həm dünyagörüşünə, mənəvi keyfiyyətlərinə, həm də bacarıqlarına, innovasiyalara açıq olmalarına, təhsil səviyyələrinə görə fərqlənən yeni nəsl kadr bazasının formalaşdırılmasını bir zərurət kimi qarşıya qoyur.

Bu baxımdan Azərbaycanın indiki strateji mərhələdə rəqəmsal inkişafı prioritet kimi müəyyənləşdirməsi, bununla bağlı ayrıca proqramın qəbul edilməsi, kadrların yetişdirilməsinə böyük həssaslıqla yanaşması təqdirəlayiq haldır. Məhz bu kontekstdə “Yüksəliş” müsabiqəsi kadr layihəsindən əlavə, Azərbaycanın dövlət siyasətinə üzvi şəkildə inteqrasiya olunmuş, idarəetmə kadrlarının inkişafı üzrə milli model və standart kimi qəbul olunur. Azərbaycan Prezidenti İlham Əliyev vurğulayır ki, ölkənin strateji gələcəyi insan...

Bax səh. 4

## Ermənistan seçkilərə necə hazırlaşır?



Bax səh. 7

## Ukrayna mövzusu “ikinci plana” keçir?



Bax səh. 7

# Helsinkidən zəng

Martın 10-da Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.



Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Aleksandr Stubb İranın Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumu ilə əlaqədar ölkəmizə dəstəyini ifadə edib.

Azərbaycan Prezidenti telefon zənginə və göstərilən dəstəyə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Prezident İlham Əliyevlə Prezident Aleksandr Stubbun görüşləri və həmin görüşlər zamanı ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı aparılmış müzakirələr məmnunluqla xatırlanıb.

Azərbaycan və Finlandiya prezidentləri əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Sabitliyə mənfi təsir göstərə biləcək addımların qarşısının alınması zəruridir



Martın 10-da Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, telefon söhbəti zamanı Yaxın Şərq regionunda yaranmış gərginlikdən narahatlıq ifadə olunub, region dövlətlərinin təhlükəsizliyinə və sabitliyinə mənfi təsir göstərə biləcək addımların qarşısının alınmasının zəruriliyi bildirilib.

Telefon danışığı əsnasında, eyni zamanda, Azərbaycan-Suriya ikitərəfli əlaqələrinə toxunulub, münasibətlərin möhkəmləndirilməsində, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsində hər iki tərəfin maraqlı olduğu bildirilib. Təmasların davam etdirilməsi barədə razılıq əldə olunub.

# Dünyaya ortaq mesaj

## Azərbaycanla Türkiyə sıx təmasdadır

Yaxın Şərq regionunda, xüsusilə İranda baş verən hadisələr Azərbaycanın diqqət mərkəzindədir. Regional hərbi eskalasiya ilə bağlı Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib ki, bölgədə və qlobal səviyyədə təhlükəsizlik və sabitlik üçün ciddi təhdid yaradan hərbi eskalasiya dərin narahatlıq doğurur. "Qəti şəkildə, bütün tərəfləri maksimum təmkin nümayiş etdirməyə, gərginliyi daha da artıracaq hərəkətlərdən çəkinməyə və danışıqlar masasına qayıtmağa çağırırıq. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla tanınmış norma və prinsiplərinə uyğun olaraq bütün dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə hörmət edilməsinin vacibliyini vurğulayırıq", - deyə bəyanatda vurğulanıb.

**Prezidentlərin və XİN başçılarının telefon danışıqları...**

Mövcud vəziyyət bütün region ölkələri üçün riskləri artırır. Çünki münaqişənin genişlənməsi qonşu ölkələr üçün təhlükələri istisna etmir. Azərbaycan proseslərlə bağlı müxtəlif ölkələrlə, eləcə də qonşu dövlətlərlə sıx təmasdadır. Bu baxımdan, qardaş Türkiyə ilə təmaslar xüsusi vurğulanmalıdır. Əlbəttə, bu da təsadüfi deyil. Çünki Azərbaycan və Türkiyə "Bir millət, iki dövlət" prinsipi ilə dünyaya örnək olan, qardaşlıq və birlikdəlik ruhunu əks etdirən, qədim tarixə, dərin köklərə malik ölkələrdir. Bu qardaşlıq münasibətləri iki ölkənin mədəni, tarixi və dil əlaqələrinə əsaslanır. Həmçinin Azərbaycan və Türkiyə geosiyasi baxımdan strateji müttəfiqlər olaraq, regional və qlobal səviyyədə mühüm əhəmiyyət kəsb edirlər. Bu əlaqələr, həmçinin Türk dünyası çərçivəsində birliyin və əməkdaşlığın təmin edilməsi istiqamətində bir model kimi çıxış edir.

Regionun gücü və nüfuzlu dövlətləri olan Azərbaycanla Türkiyə daim müxtəlif səviyyələrdə təmasdadır və ikitərəfli, o cümlədən regional proseslərlə bağlı koordinasiyalı şəkildə əməkdaşlıq edirlər. Bir neçə gün öncə İran ərazisindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasının mülki obyektlərinə dron hücumundan sonra Türkiyənin liderləri başda olmaqla bir sıra rəsmi şəxslər ölkəmizə dəstəyini ifadə ediblər. Eyni zamanda, martın 9-da Türkiyənin Qaziantep vilayətinin Şahinbey rayonu səmasında NATO hava və raketdən müdafiə qüvvələri tərəfindən ballistik raket zərərsizləşdirilib. Verilən məlumatlara görə, raket İran ərazisindən atılıb.



Hadisə ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev həmin gün türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana zəng edib. Dövlətimizin başçısı Türkiyə Respublikasının ərazisinə qarşı həyata keçirilmiş raket hücumunu qınayıb, qardaş Türkiyə xalqına dəstəyini ifadə edib. Rəcəb Tayyib Ərdoğan telefon zənginə və mövqeyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Bundan əlavə, Prezident Rəcəb Tayyib Ərdoğan Ankarada hökumət iclasından sonra keçirilən brifinqdə bildirib ki, Türkiyə qardaş ölkələrlə, xüsusən də Azərbaycanla həmrəydir: "Bölgəmizdə sülh və sabitliyi pozacaq hər hansı bir ssenariyə qarşıyıq. Heç kim səhv hesablar etməsin. Qardaşı qardaşa qarşı qoyacaq tələyə düşməməliyik".

Eyni zamanda, Azərbaycan və Türkiyənin xarici işlər nazirləri Ceyhun Bayramovla Hakan Fidan arasında telefon danışığı olub. Telefon danışığı zamanı regionda mövcud təhlükəsizlik vəziyyəti və artan gərginlik ətrafında fikir mübadiləsi aparılıb, hərbi eskalasiya fonunda son hadisələrin yaratdığı risklər və onların regional sabitliyə təsirləri müzakirə edilib. C.Bayramov Türkiyə ərazisinə qarşı həyata keçirilmiş raket hücumunu qınayıb, qardaş Türkiyə xalqına dəstəyini ifadə edib. Hərbi eskalasiyanın daha da genişlənməsinin arzuolunmaz nəticələrə gətirib çıxara biləcəyi qeyd edilərək, gərginliyin azaldılması və dialoq mühitinin təşviqi istiqamətində mümkün addımlar barədə fikir mübadiləsi aparılıb. Qarşıdurma zamanı qonşu ölkələrə qarşı hücumların və suveren dövlətlərin ərazi bütövlüyünə yönəlmiş hər hansı addımların qəbuledilməz olduğu xüsusi vurğulanıb.

Telefon söhbətində, həmçinin Azərbaycan-Türkiyə strateji müttəfiqlik və qardaşlıq münasibətlərinin hazırkı mürəkkəb geosiyasi şəraitdə böyük əhəmiyyət kəsb etdiyi qeyd edilib, bu çərçivədə iki ölkə arasında qarşılıqlı məsləhətləşmələrin və regional məsələlər üzrə koordinasiyanın davam etdirilməsinin vacibliyi bildirilib.

**İki qardaş ölkə hər zaman bir-birinin yanındadır**

Xatırladaq ki, 1990-cı illərin sonlarından başlayaraq, xüsusən də müstəqilliyin ilk illərində Türkiyə Azərbaycana siyasi və diplomatik dəstək göstərib, həmçinin iqtisadi inkişaf sahəsində bir çox layihələrdə iştirak edib. Türkiyə ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə olan dəstəyini, xüsusilə keçmiş Qarabağ münaqişəsi zamanı açıq şəkildə nümayiş etdirib. İki ölkə arasında ticarət əlaqələri, enerji və nəqliyyat sahələrində əməkdaşlıq da kifayət qədər genişdir. 2000-ci illərdə, xüsusilə enerji və infrastruktur layihələri ölkəmizin iqtisadi inkişafını dəstəkləmək və Türkiyə ilə əlaqələri daha da möhkəmləndirmək baxımından mühüm əhəmiyyət kəsb edib. Azərbaycan enerji ixracatı sahəsində Türkiyə vasitəsilə Avropaya açılan yeni yollar əldə edib, bu da hər iki ölkə üçün strateji baxımdan əhəmiyyətli olub.

2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycanı siyasi və diplomatik baxımdan dəstəkləməsi, bu əlaqələrin daha da möhkəmlənməsinə gətirib çıxarıb. Bu əməkdaşlıq yalnız iqtisadi və hərbi sahələrdə deyil, mədəniyyət və təhsil sahələrində də inkişaf etməkdədir. Türkiyənin Azərbaycanda həyata keçirdiyi bir çox təhsil və mədəniyyət proqramları, iki xalq arasında daha da yaxınlaşmağa səbəb olub. Bu sahələrdəki fəaliyyətlər həm də gələcək nəsillər üçün təməl yaradaraq iki ölkə arasında mədəni inteqrasiyanı artırıb.

Azərbaycan da hər zaman Türkiyənin çətin günlərində onun yanında olub. Güclü zəlzələdən sonra dövlətimiz tərəfindən Kahramanmaraşda şəhərciyin inşa edilməsi bunun göstəricisidir.

**Hərbi və təhlükəsizlik sahələrində əlaqələr genişlənir**

Ölkələrimizin hərbi sahədəki əməkdaşlığı da hər zaman böyük önəm daşıyıb. Türkiyə ilə Azərbaycanın hərbi və təhlükəsizlik sahəsindəki əməkdaşlığı bölgənin sabitliyi, təhlükəsizliyi baxımından olduqca əhəmiyyətlidir. Hər iki ölkə müxtəlif beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstərir və bu əməkdaşlıq da həm regional, həm də qlobal səviyyədə birgə təhlükəsizlik təşəbbüslərinə rəhbərlik edir. Azərbaycanın öz ərazilərini 30 illik işğaldan azad etməsi prosesində Türkiyənin siyasi dəstəyi də ölkələrimiz arasındakı münasibətlərin möhkəmlənməsinə səbəb olub. Həmçinin bu baxımdan ölkələrimiz arasında birgə hərbi təlimlərin keçirilməsi, silah tədarükü və müdafiə sənayesi sahəsindəki layihələr mühüm əhəmiyyət kəsb edir. 2021-ci ilin iyun ayında Şuşa şəhərində imzalanmış Müttəfiqlik Bəyannaməsi isə münasibətlərimizin zirvəsini təşkil edir. Bu sənədə əsasən, zərurət yarandıqda tərəflər bir birinə hərbi dəstək verəcəklər.

Azərbaycanın müdafiə qabiliyyətinin artırılması istiqamətində Türkiyənin verdiyi dəstək, xüsusilə hərbi təlimlərlə davam edir. Azərbaycanın müxtəlif bölgələrində keçirilən hərbi təlimlərdə Türkiyə Silahlı Qüvvələri və Azərbaycan Silahlı Qüvvələri birgə iştirak edərək hərbi hazırlıq səviyyələrini artırıb, regional təhlükəsizliyi təmin etmək üçün güclü təməl yaradıb. Bu təlimlər, həmçinin NATO ilə əməkdaşlıq çərçivəsindəki əlaqələri gücləndirir və qardaş ölkələrimizin beynəlxalq təhlükəsizlik məsələlərindəki həmrəyliklərini daha da möhkəmləndirir.

Bütövlükdə, Azərbaycan və Türkiyə arasındakı münasibətlər iki ölkənin ortaq tarixindən, mədəniyyətindən və dilindən qaynaqlanaraq beynəlxalq səviyyədə güclü strateji əməkdaşlığa çevrilib. Türk dünyası daxilində ölkələrimiz arasında artan əməkdaşlıq yalnız iki dövlətin deyil, bütün Türk dünyasının birliyini və inkişafını dəstəkləyir. Hər iki ölkə regional təhlükəsizlik məsələlərində də ortaq maraqlara malikdir. Yəni, Cənubi Qafqazda yaranmış yeni reallıqlar, o cümlədən Yaxın Şərqdə artan gərginlik iki qardaş ölkənin diqqət mərkəzindədir. Dövlətlərimiz regionumuzda sülhün və sabitliyin təmin olunması üçün birgə diplomatik fəaliyyət həyata keçirirlər.

*Nardar BAYRAMLI*

# Dünya Azərbaycana dəstək verir



Xəbər verildiyi kimi, martın 5-də səhər saatlarında İran ərazisindən Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana dron hücumu baş verib. Nəticədə Naxçıvan Beynəlxalq Hava Limanının inzibati binası zədələnib. Dronlardan biri Babək rayon Şəkərabad kənd tam orta məktəbin yaxınlığına düşərək partlayıb. Naxçıvaana edilən dron hücumu zamanı 4 nəfər xəsarət alıb.

Azərbaycanın Naxçıvana edilən dron hücumu ilə bağlı mövqeyi kifayət qədər sərt oldu. Eyni zamanda, dünya dövlətləri və beynəlxalq təşkilatlar da bu hücumu qətiyyətlə pisləyərək ölkəmizə dəstək verirlər. Respublikamızla dərin həmrəylik ifadə olunur ki, bu da son illərdə Azərbaycanın beynəlxalq səviyyədə aratan nüfuzunun göstəricisidir. Respublikamız xoş məramа əsaslanan siyasət həyata keçirir, hər zaman beynəlxalq hüquqa hörmətlə yanaşır, daim yeni həmrəylik təşəbbüsləri irəli sürür ki, bütün bunlar da dünyada böyük təqdirlə qarşılanır.

**Azərbaycan xoş məramа əsaslanan missiyasına sadiqdir**

Azərbaycan xoş məramа, beynəlxalq hüquqa və qonşuluq prinsipinə əsaslanan missiyasını İran müharibəsi ilə əlaqədar da davam etdirir. İlk növbədə onu vurğulamaq yerinə düşər ki, Prezident İlham Əliyev ölkə ərazisindən qonşu dövlətlərə hücum məqsədilə plasdarm kimi istifadə edilməsinə yol verilməyəcəyini qəti şəkildə bəyan edib. Bu, Azərbaycanın prinsipial mövqeyinin ali səviyyədə təsdiqidir. Bu mövqeyə sadiq qalan Azərbaycan eyni zamanda İranda qalan xarici ölkə vətəndaşlarının təxliyyəsində hərtərəfli dəstək göstərir. Fevralın 28-i saat 8:00-dan martın 10-u saat 10:00-dək İrandan Azərbaycana 69 ölkədən ümumilikdə 2 min 097 nəfər təxliyə olunub. Təxliyə olunanların 365 nəfəri Azərbaycan vətəndaşıdır. Eyni zamanda Çindən 620, Rusiyadan 292, Tacikistandan 174, Pakistandan 137, Omandan 57, İtaliyadan 44, İndoneziyadan 32, İrandan 29, İspaniyadan 26, Səudiyyə Ərəbistanından 18, Yaponiyadan 17, Fransa və Almaniyadan hərəsindən 16, Gürcüstandan 13, Özbəkistan, Macarıstan və Polşadan hərəsindən 12, Meksikadan 11, Nigeriya, Belarus, Bolqarıstan və Konqo Demokratikdən hərəsindən 10, Böyük Britaniyadan 9, Braziliya, Qazaxıstan və Kanadadan hərəsindən 8, BƏƏ, Slovakiya, Belçika və Rumıniyadan hərəsindən 6, Serbiya, İsveçrə, Çexiya, Əfqanıstan və Avstriyadan hərəsindən 5, İordaniya, Banqladeş, Türkiyə, Ukrayna, Şri-Lanka, Küveyt və Bəhreyndən hərəsindən 4, Qətər, Filippin, Xorvatiya və Finlandiyadan 3, Nepal, Livan, Hindistan, Yəmən, Qırğızıstan, İsveç, Sudan, Kipr, ABŞ və Sloveniyadan hərəsindən 2, Tunis, Cənubi Afrika, Maldiv Adaları, Myanma, Kuba, Vatikan, Argentina, Bosniya və Herseqovina, Latviya, Misir, Avstraliya və Belizdən hərəsindən 1 vətəndaş Azərbaycan ərazisinə təxliyə olunublar. Təxliyə prosesi müvafiq prosedur qaydalarına və təhlükəsizlik tələblərinə uyğun şəkildə həyata keçirilir.

**Türkdilli ölkələrin Azərbaycanla həmrəyliyi**

Azərbaycan Türkdilli ölkələr arasında həmrəyliyin möhkəmlənməsinə davamlı töhfələr verir. Bu gün artıq beynəlxalq təsisat kimi formalaşan Türk Dövlətləri Təşkilatının (TDT) əsası məhz Naxçıvanda qoyulub. Prezident İlham Əliyev Türkdilli ölkələri vahid ailə kimi səciyyələndirib və bildirib ki, bizi başqa yerdə gözləmirlər.

Belə münasibətin qarşılığı olaraq Türkdilli ölkələr martın 5-də Naxçıvana edilən dron hücumu kəskin şəkildə qınamaqla Azərbaycanın yanında olduqlarını təsdiqləyirlər. Hadisə ilə bağlı ilk zənglər, əlbəttə ki, qardaş Türkiyə rəsmilərindən gəlib və bu gün də gəlməkdədir. Türkiyə və Azərbaycan arasında münasibətlər dostluğun, qardaşlığın zirvəsidir. Dünyada bu dostluğa xələl gətirə biləcək hansısa bir qüvvə yoxdur. Hər iki dövlət, hər iki xalq həm şad, həm də kədərli günlərdə bir yerdədirlər. Martın 5-də Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə telefon açaraq Naxçıvan Muxtar Respublikasına edilən dron hücumunu qınadığını deyib, qardaş Azərbaycan xalqına dəstəyini ifadə edib.

Azərbaycana dəstək mesajları Türkiyənin digər yüksəksəviyyəli rəsmilərindən də gəlib. Martın 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İstanbul şəhərində Türk Dövlətləri Təşkilatı Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclası çərçivəsində Türkiyənin xarici işlər naziri Hakan Fidan ilə görüşüb. Görüş zamanı Yaxın Şərqdə mövcud təhlükəsizlik vəziyyəti, regionda artan eskalasiya və bunun regional sabitliyə mümkün təsirləri müzakirə olunub. İki qardaş ölkə nazirlərinin görüşündə İran İslam Respublikasının ərazisindən Türkiyənin ərazisini hədəf alan raket buraxılışı və Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qarşı həyata keçirilmiş dron hücumu qətiyyətlə pislənilib.

Naxçıvana edilən dron hücumu ilə əlaqədar Azərbaycana həmrəylik jestləri həmçinin Özbəkistanın, Qazaxıstanın, Qırğızıstanın və TDT-da yer alan digər ölkələrin dövlət başçılarından, xarici işlər nazirlərindən gəlib. Türk Dövlətləri Təşkilatı Naxçıvana məlum dron hücumu ilə bağlı bəyanat yayıb. Baş katib Kubanıçbek Ömüraliyevin imzası ilə yayımlanan bəyanatda bu hücumlar kəskin şəkildə qınanılıb. Baş katib bu cür hərəkətlərin təkrarlanmasının qarşısının alınmasının vacibliyini vurğulayaraq, regional vəziyyətin daha da pisləşməsinin və bölgədə gərginliyin artması ehtimalının qarşısını almaq məqsədilə təmkinli olmağa çağırış edib. K.Ömüraliyev, həmçinin TDT Katibliyinin Azərbaycan Hökuməti və qardaş Azərbaycan xalqı ilə tam həmrəyliyini bir daha vurğulayıb.

Eyni zamanda, martın 7-də İstanbulda çağırılan Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərin Xarici İşlər Nazirləri Şurasının yaydığı bəyanatda Azərbaycana dəstək ifadə olunub. Nazirlər İran İslam Respublikasının ərazisindən Türkiyə Respublikası və mülki obyektlər daxil olmaqla Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına qarşı həyata keçirilən hücumları qətiyyətlə pisləyiblər.

Nazirlər regional vəziyyəti daha da ağırlaşdıran və gərginlik coğrafiyasını genişləndirmə riskini daşıyan bu kimi məsuliyyətsiz hərəkətlərin təkrarlanmamasına dair çağırış ediblər.

Nazirlər bu çərçivədə Türkiyə və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və təhlükəsizliyinə güclü dəstəklərini ifadə edib, hər iki ölkənin xalqları və hökumətləri ilə tam həmrəy olduqlarını bir daha təsdiqləyiblər.

**50-dən çox ölkədən gələn dəstək**

Bu günlərdə müxtəlif ölkələrin rəhbərləri və rəsmiləri, həmçinin beynəlxalq təsisatlar Azərbaycan ərazisinin dron hücumuna məruz qalmasını pisləyən bəyanatlar yayıb, müxtəlif səviyyələrdə ölkəmizə dəstək və həmrəylik nümayiş etdiriblər. Bu sırada Albaniya, Almaniya, Avstriya, Belarus, Belçika, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Bolqarıstan, Bosniya və Herseqovina, Çexiya, Estoniya, Finlandiya, Fransa, Gürcüstan, Xorvatiya, İordaniya, İspaniya, İsrail, İsveç, Qətər, bütövlükdə, 50-dən çox ölkə və 8 beynəlxalq təşkilat yer alır.

Həmçinin ABŞ Dövlət Departamenti də Azərbaycana qarşı Naxçıvan Beynəlxalq Hava Limanını və uşaq məktəbini hədəf alan, günahsız mülki şəxslərin xəsarət almasına və vacib mülki infrastruktura ziyan vurmasına səbəb olan dron hücumunu qətiyyətlə pisləyən bəyanat yayıb. "ABŞ bu təhdidlərə qarşı Azərbaycanla tam həmrəydir. Bölgədəki tərəfdaşlarımızın ərazisinə edilən hücumlar qəbuledilməzdir və ABŞ-ın həm tərəfdaşlara qətiyyətli dəstəyi ilə qarşılanacaq", - deyə sənəddə vurğulanır.

Böyük Britaniyanın Azərbaycandakı səfirliyi də Naxçıvanda həyata keçirilən dron hücumunu pisləyib. Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld özünün "X" sosial media hesabında yazıb: "Böyük Britaniya Azərbaycanın təhlükəsizliyini təhdid edən istənilən hərəkəti qətiyyətlə pisləyir. Bu çətin məqamda Azərbaycanla və zərərçəkənlərlə tam həmrəyik. Səfirlik baş verənləri yaxından izləyir".

Bundan başqa, BMT, Avropa İttifaqı, Avropa Şurası, Beynəlxalq Mülki Müdafiə Təşkilatı, GUAM və digər beynəlxalq təşkilatlar da Naxçıvana edilən dron hücumunu pisləyiblər. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) "X" sosial şəbəkə hesabında dron hücumu ilə bağlı edilən bəyanatda deyilir: "Baş Katiblik mülki infrastruktura endirilən zərbələri və dinc sakinlərin həyatı üçün təhlükə yaradılmasını pisləyir. Bu, Azərbaycanın suverenliyini pozur, onun təhlükəsizliyinə və sabitliyinə təhlükə yaradır. Baş Katiblik Azərbaycanla tam həmrəyliyini təsdiqləyir, suverenliyin, təhlükəsizliyin və sabitliyin qorunması məsələsində onun yanındadır".

*Mübariz FEYİZLİ*

# Azərbaycan-İran münasibətləri:
## səmimi qonşuluq, dialoq və iqtisadi əməkdaşlıq
### Dövlətlərarası əlaqələrin xalqların mənafelərinə uyğun olaraq qarşılıqlı hörmət və etimad məcrasında inkişafı naminə birgə səylər göstərilməlidir

Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı strateji tərəfdaş, güclü və nüfuzlu aktor kimi tanınır. Cənubi Qafqaz geosiyasi məkanında lider dövlət kimi çıxış edən ölkəmiz özünün çoxvektorlu xarici siyasət strategiyası ilə həm ikitərəfli münasibətlər kontekstində, həm də çoxşaxəli əlaqələr fonunda yerləşdiyi regionun geosiyasi və geoiqtisadi, bir sözlə, geostrateji təhlükəsizliyinə fundamental töhfələr verməkdə və mövcud əməkdaşlıqlar platformasının mərkəzi oyunçusu rolunu oynamaqdadır. Qeyd edildiyi kimi, həyata keçirilən rasional və praqmatik xarici siyasət kursu sayəsində bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı regionun hərbi-siyasi, iqtisadi, ekoloji təhlükəsizliyinin təmin olunmasına fundamental strateji töhfələr bəxş edən regional güc mərkəzi kimi dəyərləndirir. Təsadüfi deyil ki, ölkəmiz qarşılıqlı münasibətlərdə, qonşuluq əlaqələrində ləyaqətli tərəfdaşlığa, beynəlxalq hüququn prinsiplərinə və ən əsası bərabərhüquqlu əməkdaşlığa istinad edir. Azərbaycan az-az ölkələrdəndir ki, hərbi münaqişələrin sülh və danışıqları yolu ilə tənzimlənməsini arzulayır, bitərəfliyini qoruyur, sabitliyin bərpası üçün səy göstərir və təhdid, təhlükə formalaşdırmır.

Paralel olaraq Bakı hər zaman qonşulara qarşı həssas davranışları, anlayışı və səmimi prinsiplər üzərində qurulan münasibəti ilə seçilib. Bu mənada, son dövrlərdə Yaxın Şərqdə cərəyan edən proseslər də bizi narahat etməkdədir. Azərbaycan münaqişə başlanan gündən bəri prosesin dinc, danışıqlar yolu ilə həllinin tərəfdarı kimi çıxış edir. Vurğulanmalıdır ki, qonşu İran İslam Respublikası ilə münasibətlər hər zaman Bakı üçün xüsusi əhəmiyyət kəsb edib. Uzun əsrlərə söykənən qonşuluq, iqtisadi-siyasi münasibətlər sistemi, dialoq mühiti bu münasibətlərin inkişaf trayektoriyasını daha da zənginləşdirir.



### Pezeşkian İlham Əliyevə zəng etdi...

Qeyd edək ki, martın 8-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Prezident Məsud Pezeşkian dövlətimizin başçısının İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar İranın Azərbaycandakı səfirliyinə gələrək başsağlığı verməsinə, həmçinin İrana humanitar yardımla bağlı niyyətinə görə minnətdarlığını bildirib. Məsud Pezeşkian Naxçıvanın havadan atəşə tutulması ilə bağlı insidentin İranla əlaqəsi olmadığını deyərək, hadisənin araşdırılacağını vurğulayıb. Prezident İlham Əliyev İranda baş vermiş son hadisələrdə çox sayda mülki şəxslərin həlak olması ilə bağlı bir daha başsağlığını çatdırıb. Dövlətimizin başçısı Naxçıvanda baş vermiş hadisənin araşdırılmasının vacibliyini vurğulayıb. Telefon söhbəti əsnasında dövlət başçıları müştərək iqtisadi layihələrin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

Biz hər zaman məsələlərin dinc, ağrısız və dialoq yolu ilə həllinin tərəfdarıyıq - Naxçıvanda baş vermiş hadisənin araşdırılacağı, düzgün qiymətləndiriləcəyi ilə bağlı Prezident Pezeşkianın fikirləri bu mənada böyük əhəmiyyət daşıyır. Bu, həm də regionun təhlükəsizliyi ilə bağlı olduqca vacib bir məqamdır. İran-Azərbaycan münasibətləri bölgənin gələcək inkişafı üçün olduqca əsaslı bir müstəvidir - münasibətlərin səmimi qonşuluq səviyyəsində inkişafı bu müstəvini daha da yüksək səviyyəyə qaldırır.

### Prezident İranın yeni Ali Rəhbərini təbrik etdi...

Prezident İlham Əliyev İran İslam Respublikasının yeni Ali Rəhbəri Ayətullah Seyid Müctəba Hüseyni Xameneyə təbrik məktubu ünvanlayıb. Dövlət başçısı Ayətullah Seyid Müctəba Hüseyni Xameneini İran İslam Respublikasının Ali Rəhbəri vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, İranın Ali Rəhbəri mərhum Ayətullah Seyid Əli Xameneinin faciəvi vəfatı ilə əlaqədar bir daha başsağlığı verib. Məktubda Azərbaycan ilə İran arasında münasibətlərin tarixən mehriban qonşuluq və dostluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlandığı bildirilib. Eyni zamanda, Azərbaycan Prezidenti dövlətlərarası əlaqələrin xalqların mənafelərinə uyğun olaraq qarşılıqlı hörmət və etimad məcrasında inkişafı naminə birgə səylər göstəriləcəyinə ümidvar olduğunu qeyd edib.

İran ilə Azərbaycan arasında münasibətlərin normal qonşuluq səviyyəsində inkişafı həm də yeni yaranan iqtisadi-ticari situasiyanı daha da gücləndirən amillər sırasında qeyd olunur - Tehran ilə Bakı arasındakı yaxın qonşuluq münasibətlərinin dərinləşməsi regional inkişaf tempinə müsbət təsirlərini göstərir. Ortaq dini-mədəni köklərə, dostluğa əsaslanan Azərbaycan-İran əlaqələrinin bundan sonra da genişlənməsi və müxtəlif sahələri əhatə edən əməkdaşlığın inkişaf etdirilməsi hər iki tərəf üçün məqbuldur. Hər iki ölkə müasir dövrdə əlaqələri yeni çağırışlar əsasında formalaşdırır - xüsusilə, iqtisadi platformada iki dövlət arasında əsaslı razılaşmalar mövcuddur, bir sıra yeni layihlər həyata keçirilib və keçirilir. Nəqliyyat sahəsində reallaşdırılan birgə layihələr əməkdaşlığa əsaslı nümunə sayıla bilər - hər iki ölkə Şimal-Cənub Dəhlizi marşrutu üzrə öz səylərini birləşdirməkdə qərarlıdır. Yaxın 10 il ərzində Asiya ilə Avropa arasındakı ticarət dövriyyəsinin həcminin bir neçə dəfə artması gözlənilir ki, burada da məhz Şimal-Cənub dəhlizi üzrə daşımalardan əldə olunacaq gəlirlər də diqqəti cəlb edir.

### Qonşuluq prinsiplərinə kölgə salınmamalıdır...

Regionumuz çətin bir sınaqdan keçir. Belə vəziyyətdə mümkün qədər diqqətli olmaq gərəkir - ümumi təhlükəsizlik arxitekturasının pozulmaması üçün önləmələrin alınması əsaslı bir tədbir kimi vacibdir. Bölgədə baş verən son hadisələr də bu baxımdan diqqətdə saxlanılmalıdır. Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğanın bir neçə gün öncə bildirdiyi kimi, "heç kim minillik qonşuluq və qardaşlıq münasibətlərini kölgə altına sala biləcək addımlar atmamalıdır". Türkiyənin dövlət başçısı deyib ki, "belə addımlar xalqımızın qəlbində və yaddaşında dərin yaralar aça bilər".

Hər bir gərginlik gec-tez öz həllini tapacaq - Azərbaycan da 6 il öncə özünün suverenliyi və ərazi bütövlüyü uğrunda haqq savaşına başlamışdı. Həmin dövrdə 44 gün davam edən hərbi əməliyyatlar zamanı Bakı regional amilləri mütləq şərt kimi dəyərləndirdi, qonşuların hər hansı bir şəkildə bu məsələdən təsirlənməsinə imkan vermədi. Bu isə ilk növbədə qonşuluq münasibətlərinin ön planda yer aldığını təsdiqləyən faktordur.

### Bakı verdiyi sözə sadiqdir...

İki ölkə arasında siyasi dialoqun konstruktiv formada davamlı hal alması regionun sabitliyi və əməkdaşlıq perspektivləri baxımından mühüm əhəmiyyət kəsb edir. Qarşılıqlı hörmət, suverenliyə riayət və iqtisadi-siyasi əməkdaşlığa əsaslanan müsbət məcra İran və Azərbaycan arasında dialoqun intensivləşməsini bir neçə strateji əsas üzərində formalaşdırır:

- Qarlıqlı hörmət prinsipi - Prezident İlham Əliyevin İran səfirliyinə gedərək başsağlığı verməsi, matəm kitabına ürək sözlərini yazması bunun ən barz sübutudur;

- Regional layihələrdə koordinasiya - İran və Azərbaycan "Şimal-Cənub" nəqliyyat dəhlizi kimi mühüm layihələrdə tərəfdaşlıq edir. Bu əməkdaşlıq regionun tranzit potensialını artırmaqla yanaşı, iqtisadi inteqrasiyanı da gücləndirir.

- Sərhədyanı əməkdaşlıq və təhlükəsizlik məsələləri - tərəflər sərhəddə sabitliyi təmin etmək və qeyri-qanuni fəaliyyətlərə qarşı birgə tədbirlər görməkdə maraqlıdır. Bu da siyasi etimadın dərinləşməsinə xidmət edir.

Beləliklə, İran ilə Azərbaycan arasında siyasi dialoqun davamlı forma alması mühüm müsbət nəticələrə yol açır - nəzərə alınmalıdır ki, qarşılıqlı anlaşma regionda hərbi və siyasi gərginliklərin qarşısını almağa imkan verir. Azərbaycan hər zaman bəyan edib ki, öz ərazisindən üçüncü ölkəyə müdaxiləyə icazə verməyəcək - Bakı verdiyi sözə sadiqdir. Əsas məsələ isə bütün tərəflərin bu dialoqu davamlı saxlaması, qarşılıqlı maraqları nəzərə alması və müsbət gündəmi qorumasıdır.

***P.İSMAYILOV***

# Prezidentin tapşırığı ilə...
## Ölkəmizdən İrana humanitar yardım göndərilib

Azərbaycan fevralın 28-dən başlayan müharibə ilə əlaqədar İranda yaranan vəziyyətə həssas yanaşma sərgiləyir. Dağıdıcı raket zərbələri qonşu ölkədə infrastruktura ciddi ziyan vurub, insanların gündəlik tələbat malları ilə təchizatında çətinliklər yaranıb. Özünün çoxvektorlu xarici siyasət kursunda humanizm prinsiplərini hər zaman önə çəkən Azərbaycan buna biganə qala bilməzdi və qalmır da. Bu çətin günlərdə Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq ölkəmizdən İran İslam Respublikasına humanitar yardım göndərilib. Yardım Fövqəladə Hallar Nazirliyinin avtomobilləri vasitəsilə yola salınıb.

**Azərbaycanın humanizm prinsipinə əsaslanan siyasəti**

Ərazi bütövlüyünü və suverenliyini tam təmin edən Azərbaycan da zamanında ədalətsiz müharibəyə cəlb olunan və humanitar fəlakətlə üzləşən ölkədir. Buna görə də dövlətimiz və cəmiyyətimiz dünyanın ayrı-ayrı bölgələrində yaşanan humanitar böhranlara həssas yanaşma sərgiləyir. Ölkəmiz daim o mövqedən çıxış edir ki, qlobal təhdidlər qarşısında beynəlxalq həmrəylik daha da gücləndirilməlidir. Bu gün biz qürur duyuruq ki, güclü Azərbaycanın dünyanın ayrı-ayrı regionlarını əhatə edən yardım proqramları uğurla icra edilir və bundan milyonlarla insan faydalanır.

Bu barədə konkret təsəvvürün yaranması üçün bəzi faktları xatırlatmaq yerinə düşər. Qlobal səhiyyə böhranı dövründə Azərbaycan özü də pandemiya ilə mübarizədə olmasına, Vətən müharibəsi aparmasına baxmayaraq, ehtiyacı olan digər dövlətləri də unutmayıb. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının (QH) üzvləri olmaqla, 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərib. Təbii ki, bu, ölkəmizin Hərəkatın sədri kimi məsuliyyətinin və bəşəri dəyərlərə verdiyi önəmin göstəricisidir. Həmçinin Azərbaycan sözügedən məqsədlə Ümumdünya Səhiyyə Təşkilatına da yardım göstərib və təşkilata 10 milyon ABŞ dolları dəyərində könüllü maliyyə töhfəsi verib. Prezident İlham Əliyev 2019-cu ildə kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərə xüsusi diqqətin ayrılmalı olduğunu gündəmə gətirib. Dövlətimizin başçısı Qoşulmama Hərəkatının sammiti zamanı inkişaf edən kiçik ada dövlətlərinin və Afrika ölkələrinin pandemiyadan sonra daha yaxşı bərpası üçün Qlobal Çağırışlar elan edib və ilk donor olaraq ölkəmiz bu məqsədlə vəsait toplamaqdır. Çağırış bütün dünyada olduğu kimi, Azərbaycanda da rəğbətlə qarşılanıb.

Qeyd edək ki, müharibə başlayandan bəri Azərbaycanın Ukraynaya humanitar yardımı davamlı hal alıb. Respublikamızdan dost ölkəyə yardımlar müxtəlif istiqamətlərdə göstərilir. Xatırladaq ki, Birinci və 3 istilik qurğusu göndərilib. Bu yardım Ukrayna üçün çətin dövrdə əsl həmrəyliyin və qardaşlıq yardımının daha bir parlaq nümunəsidir.



məqsədlə hər iki Çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırıb.

Uzanan müharibə ilə əlaqədar Ukraynada yaşanan humanitar fəlakət hər kəsə bəllidir. Aktiv döyüş əməliyyatlarının getdiyi bölgələrin milyonlarla sakini doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalıb. Ölkənin infrastruktur təminatında, xüsusilə də enerji təchizatında vəziyyət kritik dərəcədə ağırdır. Davamlı hava zərbələrinin nəticəsi olaraq enerji təchizatı obyektlərinə ciddi ziyan dəyib. Tələbat kəskin şəkildə ödənilmədiyinə görə, ölkədə energetika sahəsində fövqəladə vəziyyət rejimi tətbiq olunub. Ən çətin vəziyyət Kiyevdə, eləcə də ölkənin mərkəzi, şimal və şərq bölgələrində müşahidə olunur. Belə çətin durumda ölkənin xarici işlər naziri Andrey Sıbiqanın təşəbbüsü ilə "Ukrayna üçün istilik (WarmForUkraine)" adlı qlobal aksiyayaya start verilib. Aksiyanın məqsədi Ukrayna üçün generatorların və istilik qurğularının alınması məqsədilə vəsait toplamaqdır. vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında ölkəmizdə Ukraynadan olan uşaqlar üçün reabilitasiya kursları təşkil olunub. Həmin proqramlar çərçivəsində Ukraynadan olan uşaqlar həm respublikamızın ayrı-ayrı guşələrini gəziblər, həm də onlar 14 günlük sosial reabilitasiya proqramı çərçivəsində art-terapiya və peşəkar psixoloq tərəfindən fərdi və qrup terapiyalarına cəlb ediliblər.

O cümlədən Azərbaycan Ukraynanın kritik durumda olan enerji təchizatına dəstək verir. İndiyədək respublikamızdan Ukraynaya bir neçə dəfə enerji avadanlığı yüklənmiş humanitar yardım karvanları yola salınıb. Azərbaycan vətəndaşları və şirkətləri tərəfindən Ukraynada enerji infrastrukturunun bərpası üçün sonuncu dəfə göndərilən enerji avadanlıqları İrpen şəhərinə təhvil verilib. Bildirildiyi kimi, bu dəfə Azərbaycan tərəfindən 17 müxtəlif enerji generatoru, 4 portativ enerji sistemi

Suriyaya dəstək Azərbaycanın humanitar missiyasının daha bir ifadəsidir. Artıq Suriyada yeni dönəm başlayıb. Ölkənin keçid dövrü hakimiyyəti Bəşər Əsəd rejiminin kədərli miraslarının aradan qaldırılması kimi ağır bir prosesi irəli aparmaqdadır. Çətinliklə də olsa, uğurlar qazanılır. Respublikamız Suriyaya dəstəyini ilk ifadə edən dövlətlər sırasında yer alır. Bu dəstək müxtəlif istiqamətləri əhatə edir. O cümlədən, ölkəmizdən Suriyaya qaz ixracına da start verilib.

**Qonşu və dost İran xalqının ehtiyaclarının qarşılanması məqsədilə...**

Azərbaycanın çoxvektorlu xarici siyasət kursunda qonşu dövlətlərlə yaxşı münasibətlərin qurulması və inkişaf etdirilməsi xətti xüsusi yer tutur. Prezident İlham Əliyev dəfələrlə səslandırıb ki, hər bir ölkənin normal inkişafında qonşu dövlətlərlə münasibətlər müstəsna önəm daşıyır.

Azərbaycanla İran da qonşu dövlətlərdirlər. Bu, bir taledir və xalqlarımız da bu taledən məmnundurlar. Bizi bir sıra oxşar mənəvi dəyərlər, etiqad eyniliyi birləşdirir. Eyni zamanda, Arazın o tayında milyonlarla soydaşımız yaşayır. Bu kimi amillər nəzərə alınmaqla Azərbaycan və İran ikitərəfli əlaqələri davamlı olaraq inkişaf etdirirlər. Son illərdə iki ölkə arasında da bir sıra iqtisadi layihələrin icrası uğurla təmin olunub. Bakı və Tehran qarşılıqlı maraqlara əsaslanmaqla Şimal - Cənub nəqliyyat dəhlizinin inkişafına böyük maraq göstərirlər. Ölkələrimiz Araz çayı vasitəsilə bənzərsiz su diplomatiyası həyata keçirir və burada hidroqovşaqların inşası uğurla tamamlanıb. Araz çayı üzərində yeni körpünün tikintisinin tamamlanması ilə iki ölkə arasında nəqliyyat bağlantıları daha da intensivləşəcək. Yeri gəlmişkən, Azərbaycanın və İranın dövlət başçıları bu günlərdə telefon söhbəti əsnasında müştərək iqtisadi layihələrin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

Azərbaycanın müharibə ilə əlaqədar İranın üzləşdiyi çətinliklərə həssas yanaşması da ölkəmizin xoş məramə əsaslanan qonşuluq siyasətinə verdiyi böyük önəmin daha bir ifadəsidir. Xatırladaq ki, Prezident İlham Əliyev İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar İranın Azərbaycandakı səfirliyinə gələrək başsağlığı verib.

Bu çətin günlərdə Azərbaycandan İrana humanitar yardım da dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq göndərilib. Humanitar yardımın tərkibinə 30 tona yaxın qida məhsulları daxildir.

Bu barədə Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin Ehtiyatlara Nəzarət Departamentinin direktoru Emil Həsənzadə məlumat verib. Onun sözlərinə görə, göndərilən yardıma 10 ton un, 6 ton düyü, 2,4 ton şəkər, 4 tondan artıq içməli su, 600 kiloqrama yaxın çay, həmçinin 2 tona yaxın dərman və tibbi ləvazimatlar daxildir.

E.Həsənzadə bildirib ki, humanitar yardım yüklənmiş avtomobillər qısa müddətdə təyinat yerinə çatdırılacaq.

Qeyd olunur ki, humanitar yardım Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında martın 8-də baş tutmuş telefon danışığından sonra qonşu və dost İran xalqının mövcud ehtiyaclarının qarşılanmasına dəstək məqsədilə təşkil olunub.

Humanitar yardım karvanını Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının məsul vəzifəli şəxsləri Niyazi Rəhimov və Qurban Sadıqov İranın Astara şəhərinədək müşayiət ediblər.

***Mübariz ABDULLAYEV***

# Kredit faizlərini dövlət ödəyəcək

## Kənd təsərrüfatı ilə məşğul olan sahibkarların xərcləri azaldılır



Prezident İlham Əliyev kənd təsərrüfatında güzəştli maliyyələşdirmə barədə bir sıra məsələlərin tənzimlənməsi və bununla əlaqədar bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında fərman imzalayıb. Fərmana əsasən, fermerlər kənd təsərrüfatı üçün lazım olan vəsaitləri almaq üçün kredit götürdüyü halda faizin ödənilməsinə dövlət dəstəyi veriləcək. Bu, istehsal və emal edilən məhsulun qiymətlərinə təsir edəcək. Belə ki, indiyə qədər kreditlərin faiz ödənişləri məhsulun maya dəyərinin üzərinə əlavə olunduğundan istehsalın maya dəyəri artırdı. Artıq faizləri dövlət ödədiyindən sahibkarların xərcləri azalacaq. Sahibkarlar tərəfindən götürülən kreditlərin faizləri dövlət büdcəsi hesabına Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən maliyyələşdiriləcək.

**Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaiti hesabına...**

Bu məqsədlə 2026-cı ilin dövlət büdcəsindən kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyaların ödənilməsinə ayrılmış vəsaitin 10 milyon manatı kreditlərin faizlərinin maliyyələşdirilməsi üçün istifadə olunacaq. Kənd təsərrüfatı məhsullarının istehsalı xərclərinin (kənd təsərrüfatı istehsal vasitələrinin, o cümlədən mineral gübrə, biohumus, sertifikatlı toxum və pestisidlərin alınması, həmçinin aqrotexniki xidmətlərdən istifadə) maliyyələşdirilməsi məqsədilə müvəkkil təşkilatlar tərəfindən kənd təsərrüfatı sahibkarlıq subyektlərinə 1 il müddətə qədər verilən kreditlərin əsas borcu üzrə hesablanmış faizlər Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) vəsaiti hesabına maliyyələşdiriləcək.

Sahibkarlıq subyektləri güzəştli kreditləri əldə etmək üçün müvəkkil təşkilata (lizinq təşkilatları istisna olmaqla) rəsmi qaydada müraciət etməlidir. Müvəkkil təşkilat isə müraciətlərin qeydiyyata alındığı tarixdən 15 iş günündən gec olmayaraq, kredit riskləri təhlil olunmaqla vəsaitin verilməsi barədə qərar qəbul edəcək, yaxud sahibkarlıq subyektlərinə əsaslandırılmış imtina məktubu göndərəcək. Qaydalara əsasən, kreditlə bağlı müsbət rəy almış sahiubkarlara vəsaitin nağd qaydada verilməsi qadağandır, kreditlər sahibkarlıq subyektinin kart hesabına köçürülür. Verilmiş kredit müqabilində müvafiq məhsul, iş və xidmətlərin təhvil verilməsini təsdiq edən sənədlər təhvilverənin razılığı ilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi vasitəsilə EKTİS-ə inteqrasiya edilməlidir. Sahibkarlar aldıqları güzəştli kreditlər üzrə əsas borclarını və faiz borclarının agentliyin vəsaiti hesabına maliyyələşdirilməyən hissəsini müqavilə şərtlərinə uyğun olaraq ödəməlidirlər.

**5 min manatdan 1 milyon manatadək...**

Aqrar Kredit və İnkişaf Agentliyi öz səlahiyyətləri çərçivəsində kreditlərin istifadə olunub-olunmamasına nəzarət etmək üçün daim monitorinq həyata keçirəcək, əgər kredit vəsaitindən 3 ay müddətində istifadə edilməməsi və ya təyinatı üzrə istifadəsi halları aşkarlanarsa, ödəniş dayandırılacaq. Bu hal üzrə, eyni zamanda, ödənilmiş güzəşt vəsaiti müvəkkil təşkilata köçürülməklə agentliyə geri qaytarılacaq.

Qeyd edək ki, Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitləri hesabına verilən kreditlər kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanması və satışı, innovativ layihələrin maliyyələşdirilməsi, kənd təsərrüfatı istehsalı vasitələrinin təchizatının yaxşılaşdırılması ilə bağlı layihələri nəzərdə tutur. Eləcə də heyvandarlıq təsərrüfatlarının dövlət-özəl tərəfdaşlığı tətbiq edilməklə inkişafı sahəsində layihələrin maliyəşdirilməsi təmin edilir. Müəyyən edilmiş qaydalara əsasən, 5000 manatadək olan vəsaitlər mikrokreditlər, 5001 manatdan 30000 manatadək olan vəsaitlər kiçik həcmli kreditlər, 30001 manatdan 100000 manatadək olanlar orta həcmli kreditlər, 100001 manatdan 200000 manatadək olan vəsaitlər isə böyük həcmli kreditlər hesab edilir. Bundan başqa, bəzi layihələrə 1 milyon manatadək (əsas etibarilə damazlıq heyvan təsərrüfatları üçün) kredit verilir. Kreditlərin qaytarılma müddəti 2-5 arasında dəyişir. Belə ki, mikrokreditlər 2 ilədək, kiçik və orta həcmli kreditlər 3 ilədək, böyük həcmli kreditlər 5 ilədək, damazlıq heyvanlar üçün 3 ilədək, digər kənd təsərrüfatı istehsal vasitələri üçün 5 ilədək müddət nəzərdə tutulub. Kreditlərin dərəcəsi isə 5-7 faiz müəyyən edilib. Yeni qaydaların tətbiqindən sonra, kredit faizlərini dövlət ödədiyindən fermerlər üçün əsas kredit mükəlləfiyyəti yalnız müəyyən edilmiş borcu geri qaytarmaq olacaq.

**KTN və İqtisadiyyat Nazirliyi informasiya sistemlərini inteqrasiya edir**

Qeyd edək ki, kənd təsərrüfatı sahəsində güzəştli maliyyələşmə sisteminin elektronlaşdırılması sahibkarların, xüsusən kiçik aqrobiznesin maliyyə xidmətlərinə çıxış imkanlarının artırılmasına və şəffaflığın təmin edilməsində mühüm rol oynayır. Kreditlərin və faiz ödənişlərinin həyata keçirilməsində hesabatlılıq, dəqiq uçot və şəffaflığı təmin etmək məqsədilə Kənd Təsərrüfatı Nazirliyi (KTN) yanında Aqrar Kredit və İnkişaf Agentliyi İqtisadiyyat Nazirliyi ilə birgə informasiya əməkdaşlığı edəcək. Belə ki, kreditlərin təyinatı üzrə xərclənməsini təmin etmək üçün “Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi”nin (EKTİS) “aqrar ticarət” altsistemindən istifadə etməlidir. KTN güzəştli kreditlərin təchizatı üzrə məlumatları ötürürmək məqsədilə EKTİS resursunu İqtisadiyyat Nazirliyinin müvafiq informasiya sistemlərinə inteqrasiyasa edəcək.

Qeyd edək ki, fermerlərə təqdim olunan dövlət dəstəyi mexanizmləri güzəştli şərtlərlə maliyyələşdirmə ölkə üzrə məhsuldarlığın artmasına və aqrar sahənin inkişafına mühüm töhfə vermək məqsədi daşıyır.

Mövzunu şərh edən Milli Məclisin deputatı Vüqar Bayramovun sözlərinə, hökumət kənd təsərrüfatı sahəsinin inkişafını prioritet məsələ kimi diqqətdə saxlayır. Aqrar sektorda sahibkarlara güzəştli kreditlərin verilməsi üçün əlverişli şəraitin yaradılması, fermerlərin investisiya imkanlarının artırılması və innovativ texnologiyalara çıxışının təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu addımlar kənd təsərrüfatında dayanıqlı inkişafı və iqtisadi artımı stimullaşdırır. Güzəştli maliyyələşdirmə ilə bağlı fərman da bu sahədə dövlətin növbəti dəstəyi hesab edilə bilər. “2026-cı ildə fermerlər məhz güzəştli kreditlərdən istifadə edə biləcəklər. Praktiki olaraq kredit faizlərinin bir hissəsinin agentlik tərəfindən ödənilməsi bu anlama gəlir ki, bu halda kreditlərin güzəştli formada təqdim olunması və kredit xərclərinin femerlər üçün azaldılmasını müşahidə edəcəyik. Sözsüz ki, bütün bunlar da aqrar sektorun inkişafı baxımından vacib tədbir kimi qiymətləndirilir”.

***E.CƏFƏRLİ***

# Milli kadr siyasəti yeni mərhələdə

***Mübariz ABDULLAYEV***

Sürətlə dəyişən dünyada yaşayırıq. İnnovasiyalarla, informasiya-kommunikasiya texnologiyalarının üstün inkişafı ilə səciyyələnən 4-cü sənaye inqilabı davamlı olaraq ölkələri, insanları yeni transformasiyalarla üz-üzə qoyur. Belə bir şəraitdə meydana çıxan çağırışlar dövlətlərin idarəçiliyinin adekvat şəkildə tənzimlənməsini, bu sahədə zəruri islahatların aparılmasını, xüsusilə də həm dünyagörüşünə, mənəvi keyfiyyətlərinə, həm də bacarıqlarına, innovasiyalara açıq olmalarına, təhsil səviyyələrinə görə fərqlənən yeni nəsl kadr bazasının formalaşdırılmasını bir zərurət kimi qarşıya qoyur.

Bu baxımdan Azərbaycanın indiki strateji mərhələdə rəqəmsal inkişafı prioritet kimi müəyyənləşdirməsi, bununla bağlı ayrıca proqramın qəbul edilməsi, kadrların yetişdirilməsinə böyük həssaslıqla yanaşması təqdirəlayiq haldır. Məhz bu kontekstdə “Yüksəliş” müsabiqəsi kadr layihəsindən əlavə, Azərbaycanın dövlət siyasətinə üzvi şəkildə inteqrasiya olunmuş, idarəetmə kadrlarının inkişafı üzrə milli model və standart kimi qəbul olunur. Azərbaycan Prezidenti İlham Əliyev vurğulayır ki, ölkənin strateji gələcəyi insan potensialının inkişafı və təbii resurslara əsaslanan modeldən biliklər iqtisadiyyatına keçidlə birbaşa bağlıdır.

**Neft kapitalının insan kapitalına çevrilməsi prioriteti**

Dünyada resurslarla zəngin olan ölkələrin sayı çoxdur. Lakin müqayisələr apardıqda aydın olur ki, dövlətlərin inkişaf indeksində resurs amili heç də əsas faktor qismində çıxış etmir. Resurslarla zəngin olan bir sıra ölkələr var ki, sosial-iqtisadi inkişafları çox aşağı səviyyədədir, təhsil əhalinin bütün təbəqələrni əhatə etmir, digər dövlətlərdən, beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətdədirlər. Yüksək rifah cəmiyyətləri qurmağa, texnoloji yüksəlişə nail olan əksər ölkələrdə isə əsas inkişaf indikatoru məhz insan kapitalıdır. Bu qəbildən olan dövlətlərdə insan kapitalı ÜDM-in 75-80 faizini təşkil edirr. Dünya Bankının 2022-ci ilin yekunlarına dair açıqladığı statistikaya görə, insan kapitalının ÜDM-dəki həcminə görə ABŞ, Almaniya, Yaponiya, Çin, Böyük Britaniya, Fransa, İsveçrə, İtaliya, İspaniya və Norveç ilk onluqda yer alırlar. Bu ölkələrdə insan zəkasının məhsulu olan elektronik məhsullar dünyadakı ÜDM-in 45-50 faizini təşkil edir. Dünyanın ən böyük şirkətlərinin - “Samsung”un, “Apple”nin, “Sony”nin, “Mikorsoft”un, “Facebook”un gəlirləri bir çox ölkələrin illik büdcəsindən bir neçə dəfə çoxdur. Bütün bunlar ona dəlalət edir ki, indiki dövrdə dövlətləri güclü edən, onların gəlirlərini və ÜDM-ni artıran mənbələr sırasında zəka məhsulları, inellektual bacarıqlar, proqram təminatları neft-qaz resurslarından daha üstün mövqeyə keçib. Bu tendensiyanın perspektivdə daha da artacağı şübhəsizdir.

Azərbaycanın resurslarla zəngin olan, lakin inkişafını təmin edə bilməyən ölkələrdən fərqi ondadır ki, respublikamız Prezident İlham Əliyevin siyasi qətiyyəti sayəsində neft kapitalının insan kapitalına çevrilməsi yolunu tutub. Bu, dövlətimiz üçün alternativi olmayan seçim və strateji hədəfdir. Təsadüfi deyildir ki, ölkəmizdə dövlət büdcəsindən elm və təhsilə ayrılan vəsaitlər davamlı olaraq artırılır. Bu sahəyə yönəldilən investisiyalar çox doğru olaraq respublikamızın, xalqımızın gələcəyinə yönəldilən sərmayələr kimi dəyərləndirilir.

**Təhsilin inklüzivliyinin təmin edilməsi**

Ölkəmizin nümunəvi modelində diqqət çəkən ən mühüm məqamlardan biri təhsilin prioritetliyinin və inklüzivliyinin təmin edilməsidir. Gənclər üçün yüksək səviyyəli təhsil mühitinin yaradılması Azərbaycanın ardıcıllıqla həyata keçirdiyi siyasətin çox mühüm istiqamətlərindən birini təşkil edir. Son 22 ildə respublikamızda Prezident İlham Əliyevin imzaladığı çoxsaylı fərman və sərəncamlar əsasında təhsil sahəsində ardıcıl islahatlar həyata keçirilib, dünyanın qabaqcıl ölkələrinin təcrübələri mənimsənilib. Bütün ölkə boyunca müasir təhsil infrastrukturunun qurulması böyük nailiyyətdir. Burada həmçinin Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondunun ölkədə təhsilin inkişafına davamlı töhfələr verməsinin önəmini xüsusi qeyd edə bilərik. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində paytaxtda və regionlarda çoxlu sayda təhsil müəssisəsi tikilib və yaxud əsaslı şəkildə yenidən qurulub, müasir avadanlıqlarla, o cümlədən də kompüterlərlə təchiz edilib.

Məlumdur ki, ötən 22 il ərzində Azərbaycanda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında qara qızılı insan kapitalına çevirmək prinsipi əsasında islahatlar aparılıb. O cümlədən gənclər siyasəti ilə bağlı müxtəlif illəri əhatə edən bir neçə Dövlət Proqramı uğurla icra edilib. Həmin Dövlət proqramları ilə qarşıya qoyulan əsas hədəflərdən biri də gənclərin təhsilə əlçatanlığının artırılması ilə bağlıdır. Bəhs olunan dövrdə respublikamızda gənclər siyasəti ilə bağlı təsdiqlənən mühüm Dövlət proqramları aşağıdakılardır:

- “Azərbaycan gəncliyi Dövlət Proqramı” (2005-2009-cu illər);
- “Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)”;
- “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı;
- “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı;
- “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”;
- “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”;
- “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”.



Sonuncu Dövlət Proqramının müddəti Prezident İlham Əliyevin 12 avqust 2024-cü il tarixli sərəncamı ilə 2028-ci ilədək uzadılıb və qəbul üzrə kvota sayı 500 nəfər müəyyən olunub. 2025-ci ildən başlayaraq kvotanın 25 faizindən çox olmayan hissəsi bakalavriat səviyyəsini və 20 faizindən çox olmayan hissəsi doktorantura səviyyəsini əhatə edəcək. 2024-2025-ci tədris ilində Dövlət Proqramı çərçivəsində bakalavriat səviyyəsi üzrə 125, magistratura səviyyəsi üzrə isə 375 nəfər olmaqla, ümumilikdə, 500 nəfər təqaüdçü adını qazanıb. Ümumilikdə, proqram çərçivəsində dünyanın 21 ölkəsinə aid 151 ali təhsil müəssisəsində 1252 nəfər tələbə təhsil almaq hüququ qazanıb. Bunlardan dünyanın 14 ölkəsinə aid 64 nüfuzlu ali təhsil müəssisəsində təhsilini başa vuran 186 nəfər Dövlət Proqramı məzunu olub.

Azərbaycanda möhkəm zəmin üzərində qurulan elm və təhsil siyasətinin ardıcıllığı perspektivdə də təmin olunacaq. Ölkəmizdə 2030-cu ilədək olan dövrü əhatə edən strateji mərhələ üçün müəyyənləşdirilən 5 milli prioritetdən biri məhz rəqabətli insan kapitalının və müasir innovasiyalar məkanın formalaşdırılması ilə bağlıdır. Bu prioritetin uğurla reallaşdırılması üçün isə XXI əsrin tələblərinə uyğun elm və təhsil sisteminin qurulması əsas məqsədlərdən biri kimi qarşıya qoyulub. Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixində imzaladığı “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində oxuyuruq: “Cəmiyyətin inkişafının təminatçısı olan ümumi təhsilin gücləndirilməsi üçün təhsil sistemində gedən modernləşmə davam etdiriləcək, məzmun islahatları dərinləşməli, inteqrativ tədris təcrübəsi inkişaf etdirilməlidir. Bu əsasda ölkənin beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olunmalıdır”.

**Azərbaycanın strateji hədəfi - idarəetmədə rəqəmsallaşmanın əhatə dairəsinin genişləndirilməsi**

Ölkəmizdə ardıcıl olaraq idarəetmə islahatları həyata keçirilir. O cümlədən bu sahədə islahatlar aparılarkən idarəetmədə müasir çağırışlara uyğun olaraq informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin əhatə dairəsinin genişləndirilməsi diqqət mərkəzində saxlanılır. Qeyd etmək yerinə düşər ki, idarəetmədə rəqəmsallaşmanın tətbiqi hazırda dünyada ən intensiv yayılan trendlərdən biridir. Rəqəmsallaşmanın əhatə dairəsinin genişlənməsinin məntiqi nəticəsi kimi, qlobal iqtisadiyyat sürətlə böyüyür. Hesablamalara görə, qabaqcıl rəqəmsal texnologiyaların tətbiqi 2025-ci ilə qədər dünyada ÜDM istehsalında 3-6 trilyon ABŞ dolları həcmində artıma səbəb olub. Əgər 2018-ci ildə qlobal məlumat sferasının həcmi 33 zettabayt təşkil edirdisə, 2026-cı ilədək bu həcm 5 dəfə artıb. Hazırda qlobal məlumat sferasında illik ən sürətli artıma dünya nəhəngi Çin liderlik edir. Bu ölkə, həmçinin bulud texnologiyalarının tətbiqində rəqib tanımır. Sonrakı yerləri Asiya-Sakit Okean, eləcə də Avropa, Yaxın Şərq və Afrika regionları ölkələri bölüşürlər. Hazırda bulud texnologiyaları sənayesinin liderlərinin mənzil-qərargahı ABŞ-da yerləşir ki, bu da özlüyündə çox mühüm bir göstəricidir. Avropa regionu transformasiya texnologiyalarının alışı üzrə ABŞ və Çindən sonra üçüncü yerdə qərarlaşıb. Onu da vurğulayaq ki, dünya ölkələrində rəqəmsal texnologiyaların tətbiqinə fərqli yanaşmalar mövcuddur. Xüsusilə Sinqapur, Cənubi Koreya, Yeni Zelandiya və Danimarka kimi ölkələr bu sahədə daim yeni təşəbbüslərdən çıxış edərək özlərinin innovativ həllərini və tətbiqlərini təqdim edirlər.

Azərbaycan öz siyasətini zamanın dəyişən tələblərinə uyğun quran dövlətdir. Ölkəmiz Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq idarəetmədə, iqtisadiyyatda və sosial sferalarda qabaqcıl texnologiyaların tətbiqi yolu ilə inkişafın ardıcıllığını və dinamizmini bundan sonra da təmin etməyi hədəfləyib. Respublikamızda dövlət idarəçiliyində operativliyin və səmərəliliyin artırılması məqsədilə “Elektron hökumət”in formalaşması artıq təmin olunub. Hazırda dövlət qurumları informasiya sistemləri və ehtiyatlarından, onlar əsasında yaradılan elektron xidmətlərdən geniş istifadə edirlər. Cənubi Qafqaz regionunda ilk olaraq Azərbaycan Respublikasının TIER III səviyyəli, ISO 20000 və ISO 27001 standartlarına uyğun Data Mərkəzi yaradılıb və fəaliyyəti təmin edilib. Eyni zamanda, Prezident İlham Əliyev 3 iyun 2019-cu il tarixində “Hökumət buludu”nun (G-cloud) yaradılması və “bulud” xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında” fərman imzalayıb. Dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması, saxlanılması, aparılması və inteqrasiyasının effektiv təşkili yolu ilə dövlət idarəçiliyində xərclərin azaldılması və dövlət qurumları arasında koordinasiyanın yüksəldilməsi “Hökumət buludu”nun yaradılmasını şərtləndirən amillər sırasında yer alır.

Respublikamızın idarəetmədə rəqəmsal texnologiyaların tətbiqi ilə bağlı hədəfləri də kifayət qədər böyükdür. Prezident İlham Əliyevin 27 fevral 2026-cı il tarixində imzaladığı müvafiq sərəncamla “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı” təsdiqlənib. Eyni zamanda, dövlət başçısının imzaladığı müvafiq fərmana əsasən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası yaradılıb və Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə qurumun tərkibi təsdiqlənib. Bu islahatlar Azərbaycanın perspektiv inkişaf trayektoriyasının məhz rəqəmsallaşma ilə əlaqələndirildiyinin əyani sübutudur. Şübhə yoxdur ki, dövlət idarəçiliyində böyük təcrübəyə malik olan Mehriban xanın Əliyevanın Rəqəmsal İnkişaf Şurasının sədri kimi təsdiqlənməsi ölkəmizdə bu sahənin inkişafına güclü təkan verəcək.

**“Yüksəliş” müsabiqəsi vasitəsilə layiqli kadr bankının formalaşdırılması**

İndi həmçinin kadrlara verilən tələblər də dəyişib. Yeni idarəetmə modeli Azərbaycanın yeni baxışlarını və müasir simasını əks etdirir. Burada heç şübhəsiz ki, kadrlar mərkəzi fiqurlar qismində çıxış edəcəklər. Kadrlar idarəetməyə yeni nəfəs və dinamizm gətirməlidirlər. Azərbaycan nümunəsində biz kadrlara verilən tələblərin kifayət qədər yüksək olduğunu görürük. Dövlət başçısı vəzifələrə təyin etdiyi kadrları şəxsən qəbul edir və onlara ictimaiyyət qarşısında tapşırıqlarını verir. Qarşıya qoyulan tələblər belədir: Kadrlar düzgün işləməli, əliəyriliyə yol verməməlidirlər.

Mənəvi keyfiyyətlərlə yanaşı, kadrların təhsil və bacarıq səviyyələri də yüksək olmalıdır. Aparılan islahatlara və müəyyənləşdirilən strateji kursa uyğun olaraq müasir dövrdə təşəbbüskar, innovativ düşüncəyə malik və yüksək məsuliyyət hissi daşıyan kadrların formalaşdırılması prioritetdir.

Respublikamızda Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamı ilə “Yüksəliş” müsabiqəsi təsis edilib. Bu müsabiqənin əsas məqsədi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasıdır. Müsabiqədə iştirak Azərbaycan vətəndaşları üçün sosial mənşəyindən, yaşadığı regiondan və peşə sahəsindən asılı olmayaraq açıqdır. Çoxmərhələli seçim sistemi, yəni onlayn testlər, praktiki tapşırıqlar, komanda layihələri və final təqdimatları yalnız bilik səviyyəsini deyil, həm də idarəetmə düşüncəsini, liderlik potensialını və qeyri-müəyyənlik şəraitində fəaliyyət göstərmək bacarığını qiymətləndirməyə imkan verir.

“Yüksəliş”in prinsipial fərqi ondan ibarətdir ki, müsabiqə qəliblərin elan olunması ilə yekunlaşmır. Onun iştirakçıları mentorluq proqramlarını, təlimləri, real layihələrdə iştirakı və peşəkar əlaqələrin qurulmasını əhatə edən uzunmüddətli inkişaf ekosisteminə daxil edilirlər. Kadr ehtiyatının və Kadr Bankının yaradılması dövlət və özəl qurumlara hazırlıqlı və motivasiyalı mütəxəssislərə çıxış imkanı verir, iştirakçılara isə strateji əhəmiyyətli sahələrdə öz potensiallarını reallaşdırmaq fürsəti yaradır.

# İkinci neft bumu üçün yeni imkanlar

## Bp Xəzərdə neft və qaz hasilatını artırmağı hədəfləyir

Bp şirkətinin qlobal strategiyası neft və qaz hasilatının artırılmasına yönəlib. Əsas hədəflərdən biri cari ilin ortalarında "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağında yeni qaz layının istismara verilməsidir. Şirkət bu blokdan təxminən 4 trilyon standart kubfut (112,5 milyard kubmetr) həcmində qaz hasilatı gözləyir. Bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli bildirib ki, "Azəri-Çıraq-Günəşli" dünyada ən məhsuldar laylara malik olan dünya səviyyəli yataqdır. Laylardan neft vermə əmsalını maksimuma çatdırmaq üzrə göstəricilərimiz dünyada ən yüksək yerlərdən birini tutur. Bu, beynəlxalq şirkətlərin verdiyi hesabatlarda da əks olunub. Şirkət qaz hasilatını artırmaq üçün həm quyuların sayını ildən-ilə artırır, həm dayanmadan layları gücləndirir, həm də ən müasir və yüksəksəviyyəli texnologiyalardan istifadə olunur.

C.Kristofoli əlavə edib ki, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Qarabağ" yatağında karbohidrogen hasilatı üçün obyektlərin layihələndirilməsinə də start verilib. Bu yataqda hasilatın platforma tikilmədən sualtı quyularda həyata keçirilməsi nəzərdə tutulur, bu sahə boru kəmərləri vasitəsilə mövcud "Dərinsulu Günəşli" platforması ilə birləşdiriləcək. Boru kəmərlərinin tikintisi yeni texnologiya ilə - dənizdə borudüzən gəmidən istifadə edilməklə deyil,




quruda həyata keçiriləcək. İlkin hesablamalara görə, "Qarabağ" yatağında geoloji neft ehtiyatları 60 milyon tondan artıqdır ki, bunun da 21 milyon ton nefti və 13 milyard kubmetr qazdır.

**"Şahdəniz"ə yönələn sərmayələr artıb**

Bp qaz hasilatı üçün yeni sahələrin müəyyənləşdirilməsi məqsədilə Xəzər dənizində seysmik tədqiqatları da gücləndirib. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə imzalanmış əməkdaşlıq sazişinə əsasən, Xəzər hövzəsində innovativ texnologiyaların tətbiq olunduğu qabaqcıl seysmik tədqiqat həyata keçiriləcək. Yaradılacaq psevdo-3D seysmik həcm ayrı-ayrı 2D seysmik xətlərdən asılılığı azaltmaqla regional geoloji interpretasiyanı əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq. Bu yanaşma hövzə miqyasında 3D xəritələşdirməyə imkan verəcək, kəşfiyyat potensialının daha dərindən anlaşılmasını təmin edəcək və Xəzər hövzəsi üzrə gələcək kəşfiyyat layihələrində risklərin azaldılmasına töhfə verəcək.

Seysmik tədqiqatlardan sonra geoloji kəşfiyyat işləri aparılacaq və bu, Xəzərin hansı hissələrində yeni potensial qaz ehtiyatlarının olduğunu tapmağa imkan verəcək. İlkin ssenarilərə əsasən, geoloji kəşfiyyat baxımından ən ümidverici sahələrdən biri "Şəfəq-Asiman" blokudur. Ötən il bp SOCAR-la birgə fəaliyyət sayəsində "Şəfəq-Asiman"da ilkin tədqiqatlar aparıb və layihədən gözləntilər böyükdür. Şirkət, eyni zamanda, "Şahdəniz" layihəsi üzrə əməliyyatları sürətlə davam etdirir. Hazırda "Şahdəniz" yatağından ixrac olunan qaz Avropa regionuna yönəldilir, təkcə İtalyanın qaz tələbatının 10 faizini bu yataq ödəyir. Yataqda etibarlılıq göstəriciləri 100 faizdir və qarşıdakı illərdə bu blokda da genişmiqyaslı işlər görüləcək, əlavə investisiyalar qoyulacaq. 2025-ci ildə "Şahdəniz" üzrə fəaliyyətlərə təxminən 2 milyard 315 milyon dollar əməliyyat, 1 milyard 87 milyon dollar əsaslı xərclər sərf olunub. Hesabat dövründə yataqdan ümumilikdə 27 milyard standart kubmetr qaz və təxminən 4 milyon ton (təqribən 32 milyon barel) kondensat hasil edilib.

Bp Xəzərdəki əməliyyatlarda ilk dəfə olaraq quyuya dikborusuz yüngül müdaxilə (QDYM) texnologiyası da tətbiq edəcək. "Blue Ocean" dikborusuz müdaxilə sistemi (BORİS) kimi tanınan bu texnologiya "Oceaneering International" şirkətinin sualtı mexaniki tros vasitəsilə quyuya müdaxilə sistemidir. Bu innovativ yanaşma təzyiqin idarə olunması və hasilat səviyyəsinin gücləndirilməsinə imkan verəcək.

**SOCAR-la birgə üçüncü ölkələrdə birgə iştirak**

Azərbaycan Dövlət Neft Şirkəti və bp üçüncü ölkələrdə müxtəlif layihələrdə birgə iştirak imkanlarını da nəzərdən keçirir. Cio Kristofoli bildirib ki, SOCAR-la digər regionlarda da birgə layihədə çalışmaq planları müzakirə olunur. Özbəkistanın Üstyurt bölgəsində birgə fəaliyyət imkanları nəzərdə tutulur. 2025-ci il iyulun 24-də Özbəkistanın Energetika Nazirliyi, SOCAR və "Özbəkneftqaz" Üstyurt neft-qaz regionunun investisiya bloklarında (Boyterak, Terenqquduq, Birqori, Xaroy, Qoraqalpoq və Qulboy) geoloji kəşfiyyat işlərinin aparılmasını və sonrakı karbohidrogen hasilatını nəzərdə tutan hasilatın pay bölgüsü sazişi imzalayıb ki, bu, SOCAR geoloji kəşfiyyat işləri aparması üçün operator statusunu müəyyən edir. Proqnozlara görə, "Üstyurt" bloklarında 100 milyon ton neft və 35 milyard kubmetr təbii qaz ehtiyatı olan yataq tapıla bilər. Layihə işə salındıqdan sonra Üstyurt yaylasında ildə 5 milyon ton neft hasil etmək imkanının yaranacağı güman edilir. Layihəyə ümumi investisiya 2 milyard dolları qiymətləndirilir. Bp bu layihəni yaxın tərəfdaşlığın strateji platformalarından biri kimi görür.

**"Yaşıl enerji" sahəsində ortaq təşəbbüslər**

Bp Azərbaycan Dövlət Neft Şirkətinin törəmə müəssisəsi olan "SOCAR Green" şirkəti ilə "yaşıl enerji" sahəsində də sıx əməkdaşlıq edir. Ötən həftə bp-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel ilə əməkdaşlığın istiqamətləri müzakirə olunub və birgə layihələrin səmərəliliyinin artırılması, iş proseslərinin qlobal sənaye standartlarına uyğun təkmilləşdirilməsi, neft-qaz əməliyyatlarında karbonsuzlaşma və innovativ metodların tətbiqi ilə real dəyərin yüksəldilməsi barədə razılıq əldə olunub. "SOCAR Green" nin direktoru Elmir Musayevin sözlərinə görə, hazırda şirkət tərəfdaşlarla birlikdə bərpaolunan enerji sahəsində yeddi irimiqyaslı layihə həyata keçirir ki, burada əsas partnyor kimi bp xüsusi yer tutur. İngilis şirkəti ilə Cəbrayılda 240 MVt gücündə "Şəfəq" günəş elektrik stansiyasının tikintisi icra olunur. Layihə azad edilmiş ərazidə yerləşir və eyni zamanda neft-qaz infrastrukturunun, xüsusən də neft-qaz terminalının dekarbonizasiyasına töhfə verəcək.

Beləliklə, Bp-nin yeni kəşfiyyat və hasilat planları Azərbaycanda neft və qaz yataqlarının istismar coğrafiyasının genişlənməsi və karbohirogen istehsalının artmasına imkan verəcək. Nəticədə, Azərbaycanın planlaşdırdığı ikinci neft bumu strategiyasının reallaşması sayəsində ölkəmizin qlobal enerji təchizatçısı kimi uzunmüddətli mövqeyi daha da möhkəmlənmiş olacaq.

***E.CƏFƏRLİ***

# Neft ixrac edən ölkələrin gəlirləri artsa da...

## "ING Group" və "Financial Times" qlobal ticarət zəncirinin pozulması nəticəsində malların kəskin bahalaşacağını ehtimal edir

"ING Group" ekspertləri hesab edirlər ki, qlobal bazarlarda neftin qiymətinin artması ixrac yığımları üçün yaxşı fürsət vəd edir. Belə ki, neftin bir barelinin 10 dollar bahalaşması Azərbaycanın illik ixrac gəlirlərini təxminən 3 milyard dollar artırır. Bu isə ölkə iqtisadiyyatı üçün təxminən ÜDM-in 4 faizi həcmində əlavə gəlir deməkdir. Həmçinin, enerji ixracından əldə edilən əlavə maliyyə resursu Azərbaycanın ticarət balansını da gücləndirə bilər. Eləcə də, digər Xəzəryanı ölkə olan Qazaxıstanın illik ixrac gəlirlərini təxminən 6 milyard dollar artıra bilər. Bu isə ölkə ÜDM-nin təxminən 1,8 faizi həcmində əlavə gəlir yaradır.

Xatırladaq ki, İran ətrafındakı hadisələr, eləcə də ABŞ və İsrailin İranda hərbi əməliyyatlara başlaması, nəticədə, Yaxın Şərqdə yaranan vəziyyət dünya bazarında neftin qiymətini kəskin artırıb. İranın Hörmüz boğazını və Fars körfəzini bağlaması, qonşu ölkələrin neft-qaz infrastrukturuna zərbələr endirməsi dünyada nefti və qazı da bahalaşdırıb. Azərbaycan nefti də son günlər sürətli bahalaşıb. Belə ki, "Azeri Light" markalı neftin qiyməti fevralın ikinci yarısında 68-74 dollar aralığında olduğu halda, martın ilk həftəsində 80-86 dollar civarında satılmaqdadır. Bir sözlə, bir həftə ərzində Azərbaycan nefti təqribən 15 dollar bahalaşıb. Azərbaycanın 2026-cı il üzrə dövlət büdcəsində neftin qiyməti 65 dollardan götürülüb. Hazırda neftin bazar qiyməti büdcədəki qiymətdən, təxminən, 20 dollar çoxdur. Bu vəziyyət isə büdcə neft gəlirlərinin əhəmiyyətli həcmdə artımını təmin edir.




Dünyanın nüfuzlu iqtisadi institutlarından olan Niderlandın "ING Group" regionda baş verən son hadisələr və geosiyasi situasiyalar, proseslərin Azərbaycan iqtisadiyyatına təsirləri ilə bağlı gözləntilərini açıqlayıb. Qeyd edilir ki, Yaxın Şərqdə gərginliyin artması və enerji bazarlarında risklərin yüksəlməsi fonunda neft qiymətlərinin artması region ölkələrinin iqtisadi göstəricilərinə müxtəlif istiqamətlərdə təsir edir. Tədqiqat institutunun ehtimallarına görə, mövcud ssenarilər enerji ixrac edən ölkələr üçün müsbət

### Azərbaycanın neft satışından gəlirləri 3 milyard dollar arta bilər

nəticələr doğurur, o cümlədən Azərbaycanda iqtisadi artım və inflyasiya ilə bağlı ciddi narahatlıq yaratmayacaq, əksinə, enerji bazarındakı fraqmentasiyalar fiskal güc və əlavə resurs imkanları formalaşdıracaq.

"ING Group" ekspertləri hesab edirlər ki, qlobal bazarlarda neftin qiymətinin artması ixrac yığımları üçün yaxşı fürsət vəd edir. Belə ki, neftin bir barelinin 10 dollar bahalaşması Azərbaycanın illik ixrac gəlirlərini təxminən 3 milyard dollar artırır. Bu isə ölkə iqtisadiyyatı üçün təxminən ÜDM-in 4 faizi həcmində əlavə gəlir deməkdir. Həmçinin enerji ixracından əldə edilən əlavə maliyyə resursu Azərbaycanın ticarət balansını da gücləndirə bilər. Eləcə də digər Xəzəryanı ölkə olan Qazaxıstanın illik ixrac gəlirlərini təxminən 6 milyard dollar artıra bilər. Bu isə ölkə ÜDM-nin təxminən 1,8 faizi həcmində əlavə gəlir yaradır.

Xatırladaq ki, İran ətrafındakı hadisələr, eləcə də ABŞ və İsrailin İranda hərbi əməliyyatlara başlaması, nəticədə Yaxın Şərqdə yaranan vəziyyət dünya bazarında neftin qiymətini kəskin artırıb. İranın Hörmüz boğazını və Fars körfəzini bağlaması, qonşu ölkələrin neft-qaz infrastrukturuna zərbələr endirməsi dünyada nefti və qazı da bahalaşdırıb. Azərbaycan nefti də son günlər sürətlə bahalaşıb. Belə ki, "Azeri Light" markalı neftin qiyməti fevralın ikinci yarısında 68-74 dollar aralığında olduğu halda, martın ilk həftəsində 80-86 dollar civarında satılmaqdadır. Bir sözlə, bir həftə ərzində Azərbaycan nefti təqribən 15 dollar bahalaşıb. Azərbaycanın 2026-cı il üzrə dövlət büdcəsində neftin qiyməti 65 dollardan götürülüb. Hazırda neftin bazar qiyməti büdcədəki qiymətdən təxminən 20 dollar çoxdur. Bu vəziyyət isə büdcədə neft gəlirlərinin əhəmiyyətli həcmdə artımını təmin edir.

### Qlobal ərzaq böhranı dalğası başlayır

"ING"in fərz olunan digər ssenarisi isə enerji qiymətlərinin yüksəlməsinin neft və qaz idxal edən dövlətlərin iqtisadi sektorunda risk faktorları yaratması ilə bağlıdır. Ehtimallara görə, enerji qiymətlərinin artımı qlobal mühit üçün yeni inflyasiya riskləri yaratmaqla, idxalçı ölkələrin cari hesab balansına təzyiqləri artıracaq. İqtisadi artım və sənaye istehsalı üzrə tarazlığın pozulması nəticəsində xammal və əmtəələrin qiymətlərin bahalaşması istisna deyil. Regionda münqaişənin gərginləşməsi və Hörmüz logistikasındakı təchizat zəncirinin pozulması qlobal ticarət münasibətlərinin dinamikasını kəskin zəiflədəcək, sənaye və qida məhsullarının ixracında donmalar baş verəcək.

Böyük Britaniyanın "Financial Times" qəzeti bildirir ki, müharibə dünyanın ən böyük istehsalçılarından birinə təzyiq göstərdiyindən artıq sənaye, xammal və digər aqrar əmtəələrin qiymətləri kəskin şəkildə artır, təchizatda fasilələr belə davam edərsə, qarşıdakı 6-10 həftə içərisində kənd təsərrüfatı malları 30 faizdən çox bahalaşacaq, əsas qida məhsulu olan un və çörəyin qiyməti də kəskin arta bilər.

Qəzetin analitikləri qeyd edir ki, iri treyderlər, ticarət şirkətlərinin rəhbərləri artıq həyəcan təbili çalırlar, kənd təsərrüfatı holdinqləri xammal böhranı ilə üzləşməkdədir. Aqrar sənayedə istifadə olunan karbamid və mineral gübrələrin təxminən 35 faizi Hörmüz boğazından keçir. Karbamid və azot gübrəsi qlobal qida istehsalının təxminən yarısına təsir edir. Bu marşrutla həmçinin fosfat gübrələrinin istehsalında əsas komponent olan kükürd ixracının 45 faizi və əsas xammal komponenti olan ammonyak da daşınır. Dünya bazarında əsas xammal təchizatçılarından olan "Qatar Energy" şirkət artıq kükürd, ammonyak və karbamid istehsalını dayandırdığını bildirib. "Argus" şirkətinin gübrə qiymətləri üzrə rəhbəri Sara Marlovun sözlərinə görə, İran özü münaqişə səbəbindən ammonyak istehsalını dayandırıb, regiondakı digər ölkələrdəki istehsalçılar isə gəmilərin Hörmüz boğazından keçə bilməməsi səbəbindən istehsalı azaltmağa məhkumdur.

Aqrar istehsal sektorunun iri təchizatçıları təşviş içindədir, Avropanın ən böyük gübrə şirkəti olan "Yara"nın baş direktoru Svein Tore Holster bildirib ki, bu vəziyyətin qarşısı alınmasa, qlobal qida istehsalı üçün arzuolunmaz ciddi problem yaranacaq. "Lyndon B. Johnson" institutunun qida sistemləri üzrə mütəxəssisi Raj Patelin sözlərinə görə, təchizatda fasilələr davam edərsə, çörək qiymətləri apreldə, yumurta may ayında, ət və broyler toyuğu, süd və süd məhsulları, yağın qiymətləri kəskin arta bilər. Bu isə COVİD-19 pandemiyasından da fəlakətli qlobal ərzaq fırtınası deməkdir.




### Mərkəzi Bank anti-inflyasiya tədbirlərini nəzarətdə saxlayacaq

Yeri gəlmişkən, Mərkəzi Bank (MB) da bölgədə yaranmış geosiyasi gərginliklərin Azərbaycanın xarici ticarət tərəfdaşları olan ölkələrdə makroiqtisadi mühitə, o cümlədən bazar infrastrukturlarına ciddi təsirləri ilə bağlı ehtimallarını açıqlayıb. MB hesab edir ki, Yaxın Şərq regionunda baş verən son hadisələr fonunda dollar indeksinin möhkəmlənməsi və bu şəraitdə manatın nominal effektiv bahalaşması ticarət tərəfdaşlarında inflyasiyanı neytrallaşdıra bilər. Qeyd edilib ki, qlobal enerji qiymətləri ticarət tərəfdaşlarında, xüsusilə də enerji idxalçısı olan ölkələrdə istehsal xərclərinə təsir göstərir. Neft və qaz qiymətləri üzrə davamlı artım müşahidə olunarsa, ticarət tərəfdaşlarında inflyasiya arta bilər. Ancaq baş verənlər Azərbaycanın makroiqtisadi sabitliyi üçün ciddi təhdid yaratmayacaq. Son hadisələr fonunda dollar indeksinin möhkəmlənməsi və bu şəraitdə manatın nominal effektiv məzənnəsinin artması ticarət tərəfdaşlarında inflyasiyanın artımını neytrallaşdıra bilər. "Son proseslərin ölkədə makroiqtisadi sabitlik və maliyyə sabitliyi üzrə hər hansı bir ciddi təhdid yaradacağını ehtimal etmirik. Bu, baş verərsə əvvəlki illərin təcrübəsi əsasında deyə bilərik ki, AMB hökumətlə birlikdə effektiv şəkildə bu təhdidlərə qabaqlayıcı reaksiya verəcək".

Onu da xatırladaq ki, hazırda qlobal bazar konyukturası üzrə təhlillər aparan MB bir müddət əvvəl dünya iqtisadiyyatında müxtəlif geoiqtisadi dəyişikliklər fonunda cari ildə anti-inflyasiya tədbirlərinin əsas prioritetlərindən biri olacağını bəyan edib. Mərkəzi Bank öz mandatına uyğun olaraq zəruri nəzarət alətlərini davam etdirəcək, ölkədə inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyədə saxlanılması və bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi tədbirləri cari il üçün aktual olacaq. Bu baxımdan hökumət strukturları ilə koordinasiyalı şəkildə ehtimal edilə bilən risklər nəzərə alınaraq xərclərdə maksimum ehtiyatlı davranış modeli nəzarətdə saxlanılacaq, izafi pul kütləsi yaranmasının qarşısı alınacaq.

Monetar və fiskal siyasətin sıx əlaqələndirilməsi istiqamətində görülmüş səmərəverici tədbirlər yenə də əsas çağırış kimi hökumətin iqtisadi blokunun masasında olacaq.

***E.CƏFƏRLİ***

# Staqflyasiya Avropa iqtisadiyyatını təhdid edir



Dünyada davam edən inflyasiya və kövrək iqtisadi artım fonunda Yaxın Şərqdəki münaqişə Avropa iqtisadiyyatı üçün yeni risklər yaradır. Avropa Komissiyası staqflyasiya təhlükəsi barədə xəbərdarlıq edir, mərkəzi banklar isə vəziyyəti diqqətlə izləyir.

AZƏRTAC xəbər verir ki, Yaxın Şərqdəki müharibə staqflyasiya riskini yenidən aktuallaşdırıb.

"Staqflyasiya" termini "stagnasiya" və "inflyasiya" sözlərinin birləşməsindən yaranır. Bu fenomen davamlı yüksək inflyasiyanın zəif və ya dayanıqsız iqtisadi artımla eyni vaxtda baş verməsini ifadə edir.

Belə şəraitdə iqtisadi mexanizm yavaşlayır: qiymətlər artdıqca ev təsərrüfatlarının istehlakı azalır, şirkətlərin satışları və gəlirləri düşür. Nəticədə müəssisələr daha az investisiya edir ki, bu da məşğulluğa və əmək haqlarına mənfi təsir göstərə bilər. İqtisadçılar bunu bir növ mənfi spiral kimi qiymətləndirirlər.

Avropa Komissiyasının yaydığı xəbərdarlıqda böyük staqflyasiya şoku ehtimalından danışılıb. Bir sıra göstəricilər bu riski təsdiqləsə də, hələlik iqtisadi sistem sabitliyini qoruyur. Ekspertlərə görə, əsas problem münaqişə iki-üç ay və ya daha uzun davam edərsə, yarana bilər.

Hazırkı vəziyyət Rusiyanın Ukraynaya müdaxiləsi ilə, yəni 2022-ci ildə yaşanan böhranla tam müqayisə olunmur. Həmin dövrdə neft və qaz qiymətlərinin artımı ilə yanaşı, elektrik enerjisinin qiyməti də kəskin yüksəlmişdi. Bu dəfə isə elektrik qiymətlərində eyni səviyyədə artım müşahidə olunmur və aqrar-ərzaq sektoru da hələlik ciddi təsirlənməyib. Başqa sözlə, staqflyasiya üçün şərtlər mövcuddur, lakin hələlik qığılcım baş verməyib.

## Həlledici rol mərkəzi bankların əlindədir

Belə bir ssenarinin qarşısını almaqda əsas rol mərkəzi bankların üzərinə düşür. Avropada bu vəzifəni Avropa Mərkəzi Bankı ABŞ-da isə Federal Ehtiyat Sistemi həyata keçirir. Onların əsas aləti pul siyasətidir: inflyasiyanı ideal hesab edilən təxminən 2 faiz səviyyəsində saxlamaq üçün faiz dərəcələrinin tənzimlənməsi.

Bu proses son dərəcə həssasdır. Əgər inflyasiya sürətlə artarsa, mərkəzi banklar qiymət artımını cilovlamaq üçün faiz dərəcələrini yüksəltməyə məcbur ola bilərlər. Lakin faizlərin artırılması iqtisadi artımı da zəiflədə bilər, çünki kreditlər həm istehlakçılar, həm də şirkətlər üçün daha bahalı olacaq və borclanma yükü artacaq.

Digər tərəfdən, iqtisadiyyatı canlandırmaq məqsədilə faizlərin endirilməsi inflyasiyanın yenidən güclənməsinə səbəb ola bilər. Bu isə qarşısı alınmalı əsas risklərdən biridir.

Beləliklə, mərkəzi banklar hazırda iki seçim arasında qalıblar. Onlar vəziyyəti çox diqqətlə izləyir və hələlik faiz dərəcələrinə toxunmaq niyyətində deyillər. Növbəti addımın nə vaxt atılacağı isə sual olaraq qalır: ilk addımı Federal Ehtiyat Sistemi atacaq, yoxsa Avropa Mərkəzi Bankı? Bunu zaman göstərəcək.

# Ermənistan seçkilərə necə hazırlaşır?

Ermənistan növbəti seçki ilinə daxil olub. Cari il iyunun 7-də ölkədə növbəti parlament seçkilərinin keçiriləcəyi gözlənilir. Müşahidələr onu deməyə əsas veriri ki, hazırda həm iqtidar, həm də müxalifət düşərgəsində bütün qüvvələr qarşıdan gələn seçkilər üçün səfərbər edilib. Bunu seçkiqabağı dönəmdə İrəvanda və regionlarda artan gərginlikdən də görmək mümkündür. Ölkədə sağlam siyasi rəqabət mühiti yoxdur. Əksinə, seçkilərə qatılmaq istəyində olan qüvvələr - hakimiyyət təmsilçiləri, revanşistlər, sabiq liderlər, kilsə hər ötən gün qarşılıqlı ittihamları daha da kəskinləşdirirlər. Eyni zamanda, bəzi xarici güclərin də fəallıqlarını artırdıqları müşahidə edilir. Beləliklə, Ermənistanda seçkiqabağı dönəmdə müşahidə edilən bəzi məqamlara diqqət yetirək.

## Hakimiyyətin sülh və inkişaf platforması

Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi hakim komanda Ermənistan rəhbərliyinə 2018-ci ildə "rəngli inqilab" dalğasında gəlib. Rəqibləri 2020-ci ildə İkinci Qarabağ müharibəsində Ermənistanın acınacaqlı məğlubiyyətini N.Paşinyanın əvəzlənməsi üçün əsl fürsət kimi dəyərləndirsələr də, bu, baş verMədi. Belə ki, 44 günlük müharibədən sonra keçirilən parlament seçkilərində də elektoratın böyük hissəsi məğlubiyyətə rəğmən, iqtidar komandasını dəstəklədi. Həmin seçkiləri əslində Ermənistan cəmiyyətinin nəbzini yoxlayan bir test kimi də dəyərləndirmək mümkündür. İlk baxışda məğlub iqtidarın seçkilərdə yenidən qalib gəlməsi absurd görünür. Ermənistanda baş verənlər isə onun təsdiqi idi ki, cəmiyyət artıq müharibədən yorulub, insanlar öz övladlarını mifik ideologiya naminə qurban vermək istəmirlər. N.Paşinyan müharibənin, gənc ermənilərin həyatlarını itirmələrinin, məğlubiyyətin bütün məsuliyyətini ölkənin ondan əvvəlki rəhbərlərinin üzərinə qoymağı məharətlə bacardı və buna görə də növbəti dəfə xalqdan dəstək qazandı.

Hakim komanda bu təcrübədən yaralanmaqla qarşıdan gələn seçkilərə də sülh və inkişaf platforması ilə gedir. Son günlərdə Baş nazir Nikol Paşinyan, parlament sədri Alen Simonyan, XİN başçısı Ararat Mirzoyan, parlamentin vitse-spikeri Ruben Rubinyan kimi yüksək rütbəli məmurlar ardarda açıqlamalar verərək sülhün, kommunikasiyaların açılmasının Ermənistana böyük dividendlər qazandıracağını bəyan edirlər. Bu, həqiqətən belədir. Otuz il ərzində Ermənistan cəmiyyəti xaricdəki lobbinin, kilsənin "Böyük Ermənistan" mifinin girovluğunda qalıb. Qarabağın və ətraf rayonların işğalı sadə ermənilərin həyatında hansısa bir dönüş yaratmayıb.

Ötən il avqustun 8-də baş tutan Vaşinqton görüşündən sonra isə Ermənistan üçün yeni perspektivlər açılıb. Görüşdə Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə əldə olunan mühüm razılaşmalar tamamilə fərqli reallıqlar yaradıb. İndi region heç vaxt olmadığı qədər sülhə yaxındır, TRIPP layihəsinin reallaşması ölkənin təcridinə son qoyacaq. Bütün bunlar seçkiqabağı dönəmdə iqtidar komandasının əlini gücləndirən mühüm amillərdir.

N.Paşinyan və onun tərəfdarları sülhü təşviq etməklə seçiciləri inandırmağa çalışırlar ki, bundan sonra Ermənistanda real inkişaf üçün münbit zəmin təmin ediləcək və bunun qarantı hazırkı iqtidardır. Bu ritorikanın xalq tərəfindən artıq qəbul edildiyini keçirilən çoxsaylı sorğular, küçə reportajları da təsdiqləyir. Ermənistanın sadə vətəndaşları dərk edirlər ki, müharibə, revanşizm və qonşulara qarşı saxta iddialar ölkəyə və onun əhalisinə yaxşı heç nə vəd etmir. Bu səbəbdən də iqtidar komandasının təşviq etdiyi sülh siyasəti getdikcə daha çox populyarlıq qazanır.



## Revanşistlərin yeni müharibə ritorikası

Bu gün Ermənistanda hakim komandaya rəqib kimi görünən revanşistlərin cəbhəsində müxalifətin müxtəlif qanadları təmsil olunurlar. Onlar müəyyən bir seçici auditoriyası qazanmaqdan ötrü iqtidarın siyasətini, o cümlədən də sülh posesi ilə bağlı əldə olunan razılaşmaları əyri güzgüdən təqdim etməyə çalışır və yeni müharibə ritorikasından çıxış edirlər. Bu baxımdan "Birlik qanadları" siyasi təşəbbüsünün rəhbəri, keçmiş ombudsman Arman Tatoyanın iddialari xarakterikdir. Revanşistlərin cəbhəsinə keçən Tatoyan tez-tez ictimaiyyətdə çaşqınlıq yaratmaq üçün Azərbaycanın hərbi eskalasiyaya hazırlaşdığı haqda dezinformasiyalar yayır. Onun martın 4-də baş tutan mətbuat konfransında ifadə etdiyi fikirlər buna nümunədir. Ermənistan sərhədindən bir neçə metr aralıda Azərbaycanın xüsusi sığınacaqlar tikdiyini bildirən A.Totoyan özüsayağı cəfəng nəticə çıxararaq deyib: "Onların gördüyü bu hazırlıqların hücum məqsədləri üçün də istifadə ediləbiləcəyi göz qabağındadır. Onlar kəndlərimizi birbaşa nəzarət altında saxlayırlar". Bu kimi fikirlərlə revanşistlər hakim komandanın sülh çağırışlarının əhəmiyyətini sıfırlamağa və cəmiyyəti yeni müharibə əhval-ruhiyyəsinə kökləməyə çalışırlar.

Hətta TRIPP layihəsi də hədəfə alınır. Sabiq prezident R.Köçəryan TRIPP-la bağlı suala cavabında deyib ki, bu, erməni-amerikan layihəsi olsa da, Azərbaycan və Türkiyənin maraqlarına xidmət edir. Köçəryanın sözlərinə görə, layihədə Ermənistanın maraqları nəzərə alınmır və ölkə layihədə tam tərəf kimi iştirak etmir, daha çox "yarıtərəf" roluna düşüb.

Aydın məsələdir ki, R. Köçəryan bu kimi açıqlamalarla bağlı olduğu mərkəzdən - Rusiyadan daha güclü dəstək qazanmaq istəyir. Bununla belə, Ermənistan cəmiyyətində anti-Rusiya ovqatının dərinləşməsi Moskvaya bağlı olan siyasətçilərin ümidlərinin perspektivi olmadığı reallığını ortaya qoyur.

Moskvadan dəstək gözləyən digər bir fiqur isə iş adamı S.Karapetyandır. Lakin onun komandasının da seçkilərdə uğur qazanma ehtimalı zəifdir. Buna səbəb də iqtidarın zamanında onunla bağlı önləyici tədbirlər görməsi olub. Qeyd edək ki, S.Karapetyan 2025-ci ilin iyun ayında həbs edilib. İş adamına qarşı "vəzifə səlahiyyətlərindən və ya təsir gücündən istifadə etməklə külli miqdarda çirkli pulların yuyulması" ittihamı ilə cinayət işi açılıb. 2025-ci il dekabr ayının sonlarında o, ev dustaqlığına buraxılıb.

## Kilsənin zərərsizləşdirilməsi

Son vaxtlaradək Ermənistan cəmiyyətinə kilsə mifi hakim kəsilmişdi. İnsanlar kilsəyə "Allahın evi" inancı ilə yanaşaraq din xadimlərini də müqəddəs sanırdılar, onlardan gələn hər bir tövsiyə və tapşırığa tərəddüdsüz əməl etməyi özlərinə mənəvi borc sanırdılar. Ölkə xaricindəki və daxildəki bəzi qüvvələr də bundan sui-istifadə etməklə din xadimləri ilə çirkin işbirliyinə girərək, kilsədən hakimiyyətə qarşı təzyiq aləti kimi istifadə edirdilər. Beləliklə də, Ermənistan hakimiyyəti öz siyasətini böyük dərəcədə kilsənin yazılmamış qanunlarını, xüsusilə də baş keşişdən gələn mesajları nəzərə almaqla həyata keçirirdi.

Ancaq indi Ermənistanda kilsə və baş keşişlə bağlı vəziyyət tamam fərqlidir. Cəmiyyəti utopik ideyalardan, miflərdən xilas etməyə və real Ermənistan qurmağa çalışan Baş nazir Nikol Paşinyan eyni vaxtda bir neçə qüvvəyə, o cümlədən də Apostol Kilsəsinin baş keşişinə qarşı, sözün əsl mənasında, savaş cəbhəsi açıb. Vəziyyəti dəyərləndirən erməni analitikləri irəli gedərək Baş nazirin II Qareginə qarşı açdığı savaşı onun 44 günlük müharibədə üzləşdiyi çətin vəziyyətdən daha ağır hesab edirlər ki, bu müqayisədə də həqiqət payı yox deyil.

N.Paşinyan katalikosa qarşı savaşda tədbirli davranır. Xatırlayaq ki, o, hücum planına baş keşişin qaranlıq keçmişi ilə bağlı indiyədək heç kəsin açıb-ağartmağa cürət etmədiyi faktları ictimailəşdirməklə start verdi. Təqdim olunan faktlardan aydın olur ki, II Qaregin kilsə andını pozub, onun hamıdan gizlətdiyi uşağı var. Beləliklə də, insanlarda baş keşişin müqəddəs olmasına inam sarsılıb. Təsadüfi deyildir ki, II Qareginin hakimiyyətə qarşı inqilab çağırışı səmərəsiz oldu və cəmiyyət onun çağırışını dəstəkləmədi. Bu, kilsənin tarixində görünməmiş bir haldır və o anlama gəlir ki, N.Paşinyanın atdığı ox hədəfə dəyib.

## Sülh danışıqlarına dair sənədlərin ictimailəşdirilməsi: Niyə məhz indi?

N.Paşinyan bir qədər bundan əvvəl keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı zamanında aparılan danışıqlara dair sənədləri yayacağı barədə vədinə əməl edərək onları ictimailəşdirdi. Məlum sənədlər keçmişdir və bugünkü proseslər üçün hansısa bir önəm daşımır. Aydın məsələdir ki, bu reallığı N.Paşinyanın özü də anlamamış deyil. Beləliklə, sual yaranır: Bəs Ermənistanın Baş naziri sənədlərin ictimailəşdirilməsinə niyə məhz indi lüzum görüb?

N.Paşinyanın seçkiqabağı dönəmdə belə bir addım atması təsadüfi deyil. İndiki məqamda N.Paşinyan seçkilərə qatılmaq niyyətlərini gizlətməyən sabiqləri hakimiyyəti üçün ən böyük təhlükələrdən biri kimi görür. 2018-ci illə müqayisədə cəmiyyətdə nüfuzunun əhəmiyyətli dərəcədə azaldığının fərqində olan N.Paşinyan bunu "köhnə qvardiya"nın nüfuzdan salmaqla kompensasiya etməyə çalışır. Zamanında Qarabağ kartından istifadə etməklə Ermənistanda uzun müddət hakimiyyətlərini qoruyan sabiqlər revanşı da məhz bu mövzudan "bəhrələnməklə" etmək istəyirlər. Onlar Baş naziri Qarabağı satmaqda, müharibəni uduzmaqda, Azərbaycan və Türkiyə ilə uyğun olmayan şərtlər əsasında razılaşmalara getməkdə ittiham edirlər. N.Paşinyan yaxşı anlayır ki, bu ittihamlar uzun müddət ərzində "Böyük Ermənistan" xülyasının əsirliyində qalmış cəmiyyətin müəyyən kəsimlərini ondan üz döndərməyə sövq edə bilər. Baş nazir bu təhlükəni sovuşdurmağın ən optimal yolunu ictimai diqqəti sabiqlərin özlərinin iştirakı ilə aparılan danışıqlara çəkməkdə görüb.

## Ermənistanda Aİ-nin "hibrid sürətli reaksiya qrupu"nun yerləşdirilməsi gündəmdə

Biz yuxarıda Ermənistanda seçkilərə xarici güclərin mümkün müdaxilə ehtimalından bəhs etdik. Bu ehtimal nəzərə alınmaqla Avropa İttifaqı parlament seçkilərində Rusiyanın müdaxiləsinin qarşısını almaq məqsədilə Ermənistana yardım etməyə hazırlaşır. Bu çərçivədə ölkədə əvvəlcədən Kremlin dezinformasiyasına qarşı mübarizə aparacaq "hibrid sürətli reaksiya qrupu"nun yerləşdirilməsi gündəmdədir.

Bu məsələnin gündəmə gəlməsi təsadüfi deyil. Daha dəqiq desək, müvafiq təşəbbüslə Ermənistan hakimiyyəti çıxış edib. Belə ki, xarici işlər naziri Ararat Mirzoyan fevral ayında Brüsselə məktub ünvanlayaraq İrəvana sürətli reaksiya qrupunun göndərilməsini xahiş edib.

Aİ ötən il parlament seçkiləri zamanı Moldovada hakimiyyətə qarşı sosial şəbəkələrdə Rusiyadan yayılan dezinformasiyanın erkən aşkarlanması və qarşısının alınması istiqamətində dəstək vermək üçün təxminən 20 nəfərlik oxşar qrupu Kişineuya göndərmişdi. Həm Brüssel, həm də Kişineu bu layihəni uğurlu hesab edib və Avropa İttifaqı indi eyni mexanizmi Ermənistan üçün də tətbiq etməyə hazırlaşır. Aİ-dən bildirilib ki, qurum "2026-cı ilin iyun seçkiləri ərəfəsində, eləcə də Ermənistan və Azərbaycan arasında davam edən sülh prosesi zamanı Ermənistanın demokratik dayanıqlığının və informasiya bütövlüyünün möhkəmləndirilməsinə dəstək göstərmək" niyyətindədir.

*Mübariz FEYİZLİ*

# Ukrayna mövzusu “ikinci plana” keçir?

## Danışıqlar təxirə salınır, silah təchizatı gecikir - diqqət Yaxın Şərqə!

Yaxın Şərqdə cərəyan edən hadisələr bütün dünya tərəfindən diqqətlə izlənilir. Qeyd edək ki, müharibənin gedişi tək region ölkələri üçün əhəmiyyət daşımır - eyni zamanda, Avropa qitəsi, xüsusilə Mərkəzi Avropa bu müharibədən təsirlənir. Ekspertlərin fikrincə, Yaxın Şərqdəki müharibə qlobal gündəmi dəyişdirir və eyni zamanda Ukrayna müharibəsini ikinci plana keçirir. Bu, həm avropalı siyasətçilər, həm də rəsmi Kiyev tərəfindən etiraf olunur. Belə ki, Ukrayna Prezidenti Volodimir Zelenski Yaxın Şərqdə genişlənən müharibənin Ukrayna müharibəsinə diqqəti azaltdığını açıq şəkildə bəyan edib. O, son açıqlamalarında bildirib ki, “Dünyanın diqqətinin Yaxın Şərqdəki münaqişəyə yönəlməsi Ukraynadakı vəziyyətə təsir göstərə bilər. Daha az diqqət daha az dəstək deməkdir. Daha az dəstək isə daha az hava müdafiəsi deməkdir”. Zelenski eyni zamanda vurğulayıb ki, ABŞ-ın dəstəklədiyi Ukrayna üzrə bəzi görüşlər Yaxın Şərqdə artan gərginliyə görə təxirə salınıb, çünki beynəlxalq tərəfdaşların diqqəti hazırda həmin regiondakı müharibəyə yönəlib. O, həmçinin qeyd edib ki, Yaxın Şərqdəki gərginlik uzanarsa, bu vəziyyət Ukraynaya hərbi və siyasi dəstəyin azalması riskini yarada bilər.

### Müvəqqəti “taym-aut”...

Göründüyü kimi, bu gün dünyanın diqqəti sürətlə Avropadan Fars körfəzinə yönəlib. Kiyev üçün bu, illərdir davam edən Rusiya-Ukrayna müharibəsinin tədricən dünya siyasətinin arxa planına keçmə riski deməkdir. Beynəlxalq diplomatiyada bunun analogiyası çoxdur - köhnə böhran “unudulmuş müharibəyə” çevirir. Ukrayna müharibəsinin diplomatik yolla həlli üzrə prosesin “ləngiməsi” ilə bağlı isə artıq siqnallar verilir. Martın əvvəlində Əbu-Dabidə keçirilməsi planlaşdırılan Ukrayna və Rusiya arasında danışıqlar təxirə salınıb, lakin hələlik alternativ tarix müəyyən edilməyib. Bu fasilə yalnız strateji “taym-aut” da sayıla bilər: danışıqlar prosesi rəsmi olaraq dayandırılmayıb, faktiki olaraq təxirə salınıb.

Almaniya kansleri Fridrix Mertsin martın 3-də reallaşan Amerikaya səfəri zamanı bu məsələ gündəmə gəldi - Donald Tramp Rusiya ilə Ukrayna arasında sülh danışıqlarının “çox yüksək prioritet” olaraq qaldığını bildirsə də, danışıqları davam etdirmək üçün heç bir konkret addım və ya yeni təşəbbüs açıqlamadı. Amma Yaxın Şərqlə bağlı şərhlərində Co Bayden administrasiyasının ABŞ hərbi resurslarının əhəmiyyətli bir hissəsini Ukraynaya verdiyini bildirdi - siyasi mütəxəssislər Trampın bu fikirlərini Kiyev üçün həssas məqam sayır. Belə ki, artıq Yaxın Şərq proseslərinin hərbi yardımın yenidən bölüşdürülməsi amilini ortaya çıxarması təhlükəsi yaranır.

Yaxın Şərqdəki münaqişə Ukrayna üçün həm də Avropanın yardımı nöqteyi - nəzərindən sərf etmir - bir sıra ekspertlər ən kiçik ehtimal olsa da, Avropa dövlətlərinin müharibəyə cəlb olunacağı təqdirdə Ukraynanın hazırda nisbətən sabit olan arxa cəbhəsinin zəifləyə biləcəyini iddia edirlər.

### Ukraynanı nə gözləyir?

Düzdür, bəzi ölkələr epizodik də olsa qarşıdurma ilə bağlı bəyanatlar səsləndirsələr də, hələlik ciddi şəkildə müharibəyə qoşulma faktı qeydə alınmayıb.

Ortada olan ən mühüm məsələ hava hücumundan müdafiə sistemləri ilə bağlıdır. Xarici KİV-lərin yazdığına görə, artıq Avropa Parlamentinin üzvləri də Yaxın Şərq müharibəsinin Ukraynanı arxa plana keçirdiyini, xüsusilə hava hücumu təhlükəsi ilə üz-üzə qoyduğunu bildirir. Bu barədə Avropa Parlamentinin üzvü Anna-Maya Henriksson Finlandiyanın “Yle” nəşrinə verdiyi müsahibədə bildirib. Onun sözlərinə görə, Yaxın Şərqdə hərbi əməliyyatların davam etdiyi həftə ərzində Brüsseldə bütün müzakirələrin İrana doğru yönəldiyi, Ukraynanın isə əvvəlkindən daha az müzakirə olunduğu diqqət çəkib. Parlament üzvü qeyd edib ki, Avropanın maliyyə dəstəyi olmadan Kiyev kəskin maliyyə çatışmazlığı ilə üzləşəcək.

“Politico”nun yazdığına görə isə, Avropa ABŞ-ın diqqətinin yayınmasının Rusiyanın sülhə məcburetmə marağının itirilməsinə səbəb olacağından qorxur. “Politico”nun məlumatına görə, “ABŞ-ın Yaxın Şərqdə uzunmüddətli münaqişəyə qarışmasının nəticələri siyasidən daha ciddi ola bilər: Ukrayna gündəlik Rusiya raket zərbələrini dəf etmək üçün lazım olan Amerika silahlarını itirə bilər, çünki Amerika qüvvələri onları İrana qarşı çoxlu miqdarda istifadə edir”, - deyə nəşr qeyd edib. “Atəş gücünün əhəmiyyətli bir hissəsi, o cümlədən tutucular və digər raketlər tükənib. ABŞ ehtiyatlarını doldurmalıdır, bu da o deməkdir ki, Avropa və ya Ukrayna daha az alacaq,” yazan nəşr onu da vurğulayıb ki, Avropa ölkələri hava hücumundan müdafiə sistemlərinin hazır ehtiyatlarına malik deyillər.



### 11 dövlət rəsmi Kiyevə müraciət etdi

Yeri gəlmişkən, Ukrayna Prezidenti Volodimir Zelenski Milli Təhlükəsizlik və Müdafiə Şurasının iclasından sonra verdiyi bəyanatda İran istehsalı olan pilotsuz uçuş aparatları (PUA) ilə mübarizədə Ukraynanın təcrübəsinə qlobal marağın artdığını bildirib. Zelenski artıq 11 dövlətin bu məsələdə kömək üçün rəsmi Kiyevə müraciət etdiyini açıqlayıb. Prezidentin sözlərinə görə, müraciət edən ölkələr arasında İranın qonşuları, Avropa dövlətləri və ABŞ da var: “Ukraynanın həyatı qorumaq təcrübəsinə, müvafiq tutucu vasitələrə, Radioelektron Mübarizə (REM) sistemlərinə və təlimlərə aydın maraq var. Ukrayna, bizim özümüzə ukraynalıların həyatını və müstəqilliyini qorumağa kömək edənlərin sorğularına müsbət cavab verməyə hazırdır. Artıq sorğuların bir hissəsinə konkret həll yolları və dəstəklə cavab vermişik”.

Ekspertlər qeyd edirlər ki, Ukrayna ordusu son iki il ərzində “Şahid-136/131” tipli dronların kütləvi hücumlarını dəf etmək üçün unikal mobil atəş qrupları və REM şəbəkəsi yaradıb. Bu təcrübə hazırda Yaxın Şərqdə davam edən “Epik Qəzəb” əməliyyatı fonunda xüsusilə aktuallaşıb, çünki İranın qonşuları və Qərb müttəfiqləri oxşar dron hücumları ilə üz-üzədirlər. Zelenski həmçinin vurğulayıb ki, bu əməkdaşlıq Ukraynanın müdafiə sənayesinin beynəlxalq səviyyədə gücləndirilməsinə və yeni texnoloji tərəfdaşlıqlara yol açır.

**P.İSMAYILOV**

# Müharibənin yeni siması

## Fransanın CAESAR haubitsaları Ukrayna cəbhəsində



Ukraynada 24 fevral 2022-ci ildə başlayan genişmiqyaslı müharibə qısa müddətdə klassik hərbi qarşıdurma çərçivəsini aşaraq texnologiya əsaslı müasir müharibə modelinə çevrildi. Münaqişənin ilk aylarında tank kolonları, artilleriya dueləri və hava zərbələri əsas rol oynasa da, 2023-25-ci illər ərzində döyüşlərin xarakteri ciddi şəkildə dəyişdi. Pilotsuz uçuş aparatlarının (PUA), peyk kəşfiyyatının, rəqəmsal atəş idarəetmə sistemlərinin və yüksək mobil artilleriyanın geniş tətbiqi yeni taktiki reallıq formalaşdırdı. Bu dəyişimin simvollarından biri isə Fransa istehsalı CAESAR (Camion Equipe d’un Systeme d’Artillerie) özüyeriyən haubitsa sistemlərinin Ukrayna ordusunda oynadığı rol oldu.

CAESAR sistemi Fransanın müdafiə sənayesi şirkəti Nexter Systems (sonradan KNDS konsorsiumuna daxil edilib) tərəfindən hazırlanaraq 2000-ci illərin əvvəllərində silahlı qüvvələrin arsenalına qəbul edilmişdi. 155 mm NATO standartlı artilleriya qurğusu 6x6 və ya 8x8 təkər formuluna malik yük maşını platformasında yerləşdirilir və bu xüsusiyyət onu klassik paletli artilleriya sistemlərindən fərqləndirir. Sistem standart mərmilərlə 30-35 km, ERFB və ya raketlə gücləndirilmiş mərmilərlə isə 40-50 km məsafədə hədəfləri vurmaq qabiliyyətinə malikdir. Atəş sürəti də diqqətəlayiqdir - ekipaj bir dəqiqədən az müddətdə mövqe tutaraq 3-6 mərmi atəşi həyata keçirə bilir.

Fransa Prezidenti Emmanuel Makronun rəhbərlik etdiyi administrasiya 2022-ci ilin aprel ayında Ukraynaya ilk CAESAR sistemlərinin göndərildiyini elan etdi. Həmin dövrdəki müdafiə naziri Sebastyan Lekornü bildirmişdi ki, Paris Kiyevə “yalnız silah yox, müasir döyüş konsepsiyası” təqdim edir. 2022-24-cü illər ərzində Fransa Ukraynaya ümumilikdə 30-dan artıq CAESAR qurğusu təhvil verdi, daha sonra Danimarka da öz sifarişi üçün nəzərdə tutulan 19 qurğunu Ukrayna Silahlı Qüvvələrinə ötürdü. Beləliklə, 2024-cü ilin sonuna doğru Ukraynanın istifadəsində 50-yə yaxın CAESAR sisteminin olduğu açıq mənbələrdə göstərilirdi.

Ukrayna ordusunun baş komandanı, general Oleksandr Sırski 2024-cü ilin əvvəllərində verdiyi müsahibədə vurğulamışdı ki, yüksək mobil artilleriya sistemləri klassik ağır artilleriyadan daha uzunömürlüdür, çünki onlar pilotsuz müşahidə şəraitində tez aşkar edilmir. Onun sözlərinə görə, döyüş meydanında sağ qalma müddəti artıq zirehin qalınlığı ilə deyil, mövqeni dəyişmə sürəti ilə ölçülür.

Müharibənin texnoloji dönüş nöqtəsi isə pilotsuz aparatların kütləvi tətbiqi oldu. 2023-cü ildən etibarən həm Rusiya, həm də Ukrayna gündə minlərlə FPV-dron və kamikadze PUA istifadə etməyə başladı. Rusiya tərəfi İran mənşəli “Shahed-136” tipli zərbə dronlarından geniş yararlanmaqla artilleriya mövqelərinə sistemli zərbələr endirdi. NATO ölkələrinin hərbi analitikləri qeyd edirdilər ki, artilleriya sistemlərinin aşkarolunma vaxtı 3-5 dəqiqəyə qədər azalıb. Bu isə klassik artilleriya taktikasını faktiki olaraq köhnəlmiş vəziyyətə gətirdi.

Məhz bu təhlükə səbəbindən Ukrayna hərbçiləri 2023-cü ilin ikinci yarısından başlayaraq CAESAR sistemlərini radioelektron mübarizə (REM) modulları ilə təchiz etməyə başladılar. Ukraynanın rəqəmsal transformasiya naziri Mixaylo Fedorov açıqlamalarında qeyd edirdi ki, müharibənin nəticəsi artıq proqram təminatı və siqnal üstünlüyündən asılıdır. REM sistemləri dronların GPS və idarəetmə kanallarını pozaraq onların hədəfə yönəlməsini çətinləşdirir. Ukrayna hərbi mənbələrinin məlumatına görə, modernləşdirilmiş artilleriya batareyalarında itki səviyyəsi əvvəlki dövrlə müqayisədə 2 dəfədən çox azalıb.

**Zaporojye cəbhəsi və “vur-uzaqlaş” doktrinası**

2024-25-ci illərdə döyüşlərin əsas mərkəzlərindən biri Zaporojye vilayəti oldu. Qulyaypole və Orikhiv istiqamətləri xüsusilə strateji əhəmiyyət qazandı, çünki bu bölgə Azov dənizi istiqamətində logistika xətlərinə nəzarət baxımından həlledici sayılır. ABŞ-ın o zamankı müdafiə naziri Lloyd Austin dəfələrlə bəyan etmişdi ki, Ukrayna cəbhəsində artilleriya üstünlüyü müharibənin taleyini müəyyənləşdirən əsas amillərdən biridir.

CAESAR sistemlərindən bu bölgədə geniş istifadə olunması təsadüfi deyildi. Qurğu atəş açdıqdan sonra təkrarlı platforma sayəsində 60-90 saniyə ərzində mövqeyini tərk edə bilir. NATO doktrinasında bu taktika “shoot and scoot”, yəni “vur və uzaqlaş” prinsipi adlanır. Fransa ordusunun keçmiş qərargah rəisi, general Fransua Lekuant demişdi: “Ukraynada qazanılan təcrübə göstərir ki, gələcək müharibələrdə ağır, statik artilleriya sistemlərinin yaşama şansı xeyli azalacaq”.

Moskvada bu dəyişimi açıq etiraf edib. Rusiya Müdafiə Nazirliyinə yaxın hərbi analitiklər 2024-cü ildə bildirirdilər ki, yüksək mobil NATO artilleriyası əks-batareya atəşini çətinləşdirir və pilotsuz kəşfiyyat üstünlüyünü qismən neytrallaşdırır. Buna cavab olaraq Rusiya “Lanset” kamikadze dronlarından və artilleriya radarlarından istifadəni artırdı.

Müharibənin siyasi ölçüsü də diqqət çəkir. Prezident Emmanuel Makron 2024-cü ildə Parisdə keçirilmiş təhlükəsizlik konfransında demişdi ki, Ukrayna Avropanın təhlükəsizlik sərhədidir, bu müharibədən çıxarılan nəticələr Avropa müdafiə strategiyasını yenidən formalaşdıracaq. NATO baş katibi Yens Stoltenberq isə Ukraynanı “XXI əsrin hərbi innovasiya poliqonu” adlandıraraq burada tətbiq olunan texnologiyaların alyans ölkələrinin gələcək silah proqramlarına birbaşa təsir göstərdiyini vurğulamışdı.

Bu gün Ukrayna cəbhəsində artilleriya artıq təkcə uzaqmənzilli atəş vasitəsi deyil; artıq artilleriya dron şəbəkələri, peyk məlumatları, süni intellekt əsaslı hədəf seçimi və elektron mübarizə sistemləri ilə inteqrasiya olunmuş kompleks döyüş platformasına çevrilib. XX əsrdə “müharibənin allahı” adlandırılan artilleriya XXI əsrdə texnologiyanın sintezi nəticəsində yeni mərhələyə qədəm qoymaqdadır.

CAESAR haubitsalarının Ukrayna müharibəsində rolu bir mühüm nəticəni ortaya qoyur: gələcək savaşlarda üstünlük yalnız daha güclü silaha yiyələnməklə yox, həmin silahı informasiya, mobil taktika və elektron müdafiəyə uyğunlaşdırmaq bacarığıyla qazanılacaq. Zaporojye səmasında uçan dronlar və saniyələr içində mövqe dəyişən artilleriya qurğuları artıq yeni hərbi doktrinanın - sürətli qərar, rəqəmsal üstünlük və texnoloji adaptasiya üzərində qurulan müharibə modelinin formalaşdığını nümayiş etdirir.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





## Ramazan ayı 21-ci günün duası

**“Allahumməc-əl li fihi ila mərzatikə dəlila. Və la təc-əl liş-şeytani fihi əleyyə səbila. Vəc-əlil-cənnətə li mənzilən və məqila. Ya qaziyə həvaicit-talibin”.**

**Tərcüməsi:**

**“İlahi, bu gün sənin razılığına bais olan əməllərə doğru mənə yol göstər! Bu gün şeytanın mənə hökmranlıq yollarını bağla! Cənnəti mənim üçün mənzil və aramgah et! Ey tələb əhlinin ehtiyacını yerinə yetirən Allah!”**

# Çətin suallar, yoxsa zəif hazırlıq?

## Buraxılış imtahanı müzakirələr yaratdı...

*Yeganə BAYRAMOVA*

Dövlət İmtahan Mərkəzi (DİM) martın 9-da tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirib. İmtahanda iştirak edən şagirdlər və onların valideynləri sualların çətin olması, həmçinin tədris proqramına uyğun olmaması ilə bağlı narazılıqlarını bildiriblər.

Sosial şəbəkədə sualları paylaşan valideynlərdən biri yazıb: “İmtahanda Azərbaycan dili qrammatikası blok səviyyəsində çıxıb, bu da bir daha göstərir ki, şagirdlərin universitet xəyalının repetitorsuz gerçəkləşməsi çətin olar”.

Valideynlərdən Təranə Vəliyeva isə bunları deyib: “Riyaziyyatdan açıq suallar çox çətin düşüb. Təəssüf ki, uşaqlar çox stress keçiriblər, imtahan çətin olub”.

**DİM-dən AÇIQLAMA**

Dövlət İmtahan Mərkəzi (DİM) imtahan sualları ilə bağlı məlumat yayıb: “Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən buraxılış qəbul imtahanlarının məzmunu müəyyən edilərkən istinad etdiyi metodiki çərçivə çox aydın və birmənalıdır - bunlar hazırda ölkəmizdə qüvvədə olan təhsil proqramı, dərsliklər və onların əsasında hazırlanmış buraxılış imtahanı proqramlarıdır. İmtahanların məzmunu hazırlanarkən qeyd olunanlar nəzərə alınır”.

DİM-dən bildirilib ki, tapşırıqların mürəkkəblik dərəcəsinə gəldikdə isə ümumi qayda belədir ki, hər bir imtahanda müxtəlif hazırlıq səviyyəsinə malik iştirakçıları bir-birindən fərqləndirmək üçün bütün fənlər üzrə test blokunda asan, orta və çətin test tapşırıqlarından istifadə edilir: “Çünki imtahanda yalnız zəif və orta hazırlıqlı abituriyent deyil, yaxşı hazırlıqlı iştirakçıları da bir-birindən fərqləndirmək tələb olunur. Ümumiyyətlə, imtahanın asan və ya çətin olması nisbi bir məsələdir. İmtahan iştirakçısının hazırlıq səviyyəsinə görə bu, əlbəttə, dəyişir. Hər hansı bir tapşırıq kimə görəsə çətin, kimə görəsə asan ola bilər. Ancaq ənənəvi təhlillər göstərir ki, test tapşırıqlarının çətin olması ilə bağlı bəzi iştirakçılar tərəfindən səsləndirilən mülahizələr həqiqətəuyğun olmur. İmtahanın mürəkkəblik dərəcəsi sosial şəbəkələrdə yazılanlara əsasən müəyyən edilmir. Burada əsasən hər imtahandan sonra zəif hazırlıqlı iştirakçılar yazırlar. Bu, hər il təkrarlanır.

Hazırda yekun imtahan nəticələri elan olunmayıb. Ona görə də heç kəs konkret fikir söyləyə bilməz. Nəticələr elan olunduqdan sonra lazımi göstəricilər ictimaiyyətə təqdim olunur. Həmin vaxt biz görürük ki, imtahan normal olub və iştirakçıların bilik səviyyələrinə uyğun normal sıralaması həyata keçirilib. Əvvəlki illərin imtahan nəticələrinin elmi-statistik təhlili ilə Mərkəzin saytında “Abituriyent” jurnalının 12 saylı buraxılışında tanış ola bilərsiniz.



Dövlət İmtahan Mərkəzi imtahanlardan dərhal sonra bütün tapşırıqları və onların izahını da Mərkəzin saytına və sosial şəbəkə hesablarına yerləşdirir. İmtahanda iştirak edənlər, həmçinin valideynlər, müəllimlər, ekspertlər bütün test tapşırıqları ilə tanış ola bilirlər. Sual kitabçaları da imtahan iştirakçılarına verilir. Bütün bunlar imtahanının məzmununun ictimaiyyət üçün nə qədər açıq olmasının bariz göstəricisidir”.

**Bu, doğru yanaşma deyil...**

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən təhsil üzrə ekspert Elçin Əfəndi bildirib ki, martın 9-da keçirilən imtahan bəzi abituriyentlər, valideynlər və repetitorlar tərəfindən sualların çətinliyi baxımından dilə gətirilir: “Sanki həm repetitor müəllimlərdə, həm də abituriyentlərdə belə bir fikir formalaşıb ki, DİM mövcud bazada olan sualları imtahanlara salacaq. Mövcud baza deyəndə xüsusilə, test bazasını nəzərdə tuturam (bura DİM-in test topluları, sinif testləri, ümumiyyətlə, müxtəlif təşkilatlar tərəfindən nəşr olunan vəsaitlər daxildir). Bu, doğru yanaşma deyil, yəni DİM sual bazasını yeniləyir, hər dəfə yeni suallar təqdim edir, yaxud da köhnə təqdim olunan suallar üzərində müəyyən dəyişikliklik etdikdən sonra həmin suallar yenidən imtahanlara salınır. Bu, o demək deyil ki, imtahanda təqdim olunan suallar bütövlükdə tədris proqramlarından kənardır, hətta aşağı siniflərdə yer alan müəyyən mövzular, yaxud evə verilən tapşırıqlar var ki, onlar martın 9-da keçirilən imtahanda öz əksini tapıb. DİM-in təqdim etdiyi proqramlar, o cümlədən, Elm və Təhsil Nazirliyinin tam orta ümumtəhsil müəssisələrində nəzərdə tutulan tədris proqramı və planından kənar hər hansı bir sual yoxdur”.

**“Ciddi hazırlaşan şagirdlərin də fikirlərini öyrənmişik”**

Suallar üzərində düşünmənin çox vaxt aparmasına gəlincə, ekspert qeyd edib ki, məntiqi suallar düşünmə üçün bir qədər vaxt tələb edir: “Bu da qeyri-ciddi hazırlaşan şagirdlər üçün çətinlik səviyyəsinin artması deməkdir. Lakin suallar hər zamankı kimi üç bölgü prinsipi əsasında - sadə, orta və çətin səviyyədə hazırlanır. Nəzərə alsaq ki, bu il 11-ci sinfi bitirən və imtahan verən məzunlar iki il bundan qabaq 9-cu sinif üzrə buraxılış imtahanı vermişdilər. Həmin məzunlardan da 26 nəfəri buraxılış imtahanında maksimal olan 300 balı toplamışdı. İmtahan nəticələrini gözləyirik, 58 min 138 nəfər şagird imtahandan iştirak edib və təbii ki, bu qədər şagirdlər içində imtahandan narazılıq edənlər də olacaq, sualların yaxşı olduğunu bildirən də. İmtahana ciddi hazırlaşan, məsuliyyətlə yanaşan şagirdlərin fikirlərini də öyrənmişik. Onlar bildirib ki, xarici dil və Azərbaycan dili imtahanında düşən suallar asan idi. Riyaziyyatda açıq suallarla bağlı bir qədər tərəddüdlər olub, bu suallar artıq zaman alıb, ümumi olaraq isə sualları cavablandıra bildiklərini qeyd ediblər. Bəli, bəzi suallarda dinləmə mətnləri ilə bağlı texniki nasazlığını olduğunu da dilə gətirirlər, şagirdlərin bir qismi isə imtahanda vaxtın nəzarətçi tərəfindən bildirilməməsini qeyd ediblər. Ümumilikdə isə imtahan tam normal qaydada keçib, hər hansı fənndə yer alan suallarda nə elmi, nə texniki xəta olmayıb. Hətta demək olar ki, ilk dəfədir imtahanda hansısa elmi və texniki xəta olan sualla rastlaşmamışıq.

Əslində, imtahandan sonra hər il bu kimi fikirlər səsləndirilib, sualların çətin olduğu qeyd edilib. Xüsusilə də bu fikirlər ilk imtahanlar zamanı çox səsləndirilir. Bu gündən etibarən nəticələrin emal prosesinə başlanılıb, aprelin 26-na qədər elan olunacaq”.

**Suallar bu il daha çətin olub...**

“Elm” İctimai Birliyinin sədri, təhsil üzrə ekspert Səbuhi Abdullayev isə sualların ötən illə müqayisədə çətin olduğunu təsdiqləyib: “Ötən ilə nisbətən imtahanların bu il ümumi səviyyəsi çətin olub. Məlumdur ki, buraxılış imtahanı 3 fənn - riyaziyyat, Azərbaycan dili və xarici dil istiqamətində aparılır. Azərbaycan dilində oxuyub-anlama mətnləri kifayət qədər geniş və vaxt aparan olub. Ona görə də bu durum abituriyentlər üçün çətinlik yaradıb. Eyni zamanda qrammatik sualların daha çox 3-cü qrupa uyğun olduğunu bildirirlər. Suallara diqqət yetirəndə də bunu görmək olur.

İngilis dili ilə bağlı əsas problem isə “dinləmə” ilə bağlıdır bəzən şagirdlər dinləmənin sürətli olduğunu bildirirlər. Bəzən isə otaqda səs-küyün olması səbəbindən eşitməyin mümkün olmadığını qeyd edirlər. “Oxuma” bölməsində isə söz bazaları kifayət qədər çox tələb olunur ki, şagirdlər testləri yaza bilsinlər. Bu da müəyyən çətinliklər yaradıb.

Riyaziyyat fənni ötən illə müqayisədə demək olar ki, eyni səviyyədə olub, sadəcə 5-6 sual çətin və vaxt aparan idi. Ümumiyyətlə, müqayisə etsək, Azərbaycan dili çətinlik baxımından digər fənlərdən daha qəliz olub”.

# Qlobal temperatur artımının sürətlənməsi prosesi qeydə alınıb

Yer kürəsində qlobal istiləşmənin sürəti son illərdə xeyli arta bilər. Bu, planetin temperaturu ilə bağlı uzunmüddətli məlumatları təhlil edən və təbii iqlim amillərinin təsirini antropogen səbəblərdən ayıran Potsdam Universitetinin alimlərinin gəldiyi qənaətdir.

AZƏRTAC “The Guardian” qəzetinə istinadla xəbər verir ki, tədqiqatın nəticələrinə görə, son 10 ildə orta qlobal temperaturun artım sürəti XX əsrin ikinci yarısı ilə müqayisədə təxminən iki dəfə artıb.

Sənaye dövrünün başlanğıcından bəri insan fəaliyyəti ilə əlaqəli istixana qazı tullantıları səbəbindən qlobal temperatur tədricən yüksəlir. 1970-ci illərdən etibarən qlobal temperatur hər onillikdə təxminən 0,2°C artıb ki, bu da uzun müddət nisbətən sabit qalıb.

Lakin son illərdə bir sıra temperatur rekordları qeydə alınıb. Alimlərin fikrincə, son üç il tarixdə ən isti dövr olub və bu istiləşmə prosesi 2015-ci ildən bəri baş verib.

Bunun uzunmüddətli bir tendensiya və ya müvəqqəti təbii dalğalanmalarla əlaqəli olub-olmadığını müəyyən etmək üçün tədqiqatçılar əlavə statistik təhlil aparıblar. İqlimə təsir edən üç əsas təbii amil temperatur məlumatlarından çıxarılıb: El-Ninyo, vulkanik aktivlik və günəş radiasiyası. Bu süzgəcdən sonra alimlər əsas siqnalı - istixana qazı tullantılarının yaratdığı antropogen istiləşməni müəyyən ediblər.

Təhlil göstərib ki, 2015-ci ildən bəri temperaturların artım sürəti onillikdə 0,35-0,4°C-yə qədər artıb ki, bu da əvvəlki onilliklərin sürətindən demək olar ki, iki dəfə çoxdur.

Tədqiqat istiləşmənin sürətlənməsi prosesinin dəqiq səbəbini müəyyən etməyə çalışmayıb. Lakin alimlər 2020-ci ildə dəniz nəqliyyatı üçün tətbiq edilən yeni ətraf mühit qaydalarının bir amil ola biləcəyini irəli sürürlər.



Bu qaydalar gəmilərdən çirkləndirici maddələrin tullantılarını əhəmiyyətli dərəcədə azaldıb. Həmin tullantılar havanın keyfiyyətini pisləşdirsə və hər il yüz minlərlə insanın vaxtından əvvəl ölümünə səbəb olsa da, onların tərkibindəki aerozol hissəcikləri okean üzərində buludların əmələ gəlməsinə səbəb olur. Buludlar Günəş radiasiyasının müəyyən hissəsini kosmosa geri qaytarır və soyutma təsirinə malikdir.

Aerozol tullantılarının azalması havanın keyfiyyətini yaxşılaşdırsa da, müvəqqəti olaraq qlobal istiləşməni daha da artıra bilər.

Alimlərin hesablamalarına görə, əgər temperatur artımının hazırkı tempi davam edərsə, planetdə əlavə istiləşmə XXI əsrin sonuna qədər təxminən 4°C-yə çata bilər.

İqlimşünaslar xəbərdarlıq edirlər ki, bu cür dəyişikliklər dəniz səviyyəsinin sürətlə qalxmasına, ekstremal hava hadisələrinin artmasına, okeanların turşulaşmasına, əhəmiyyətli ekosistem dəyişikliklərinə və sağlamlıq risklərinin artmasına səbəb olacaq.

Tədqiqatın müəllifləri qeyd edirlər: “İstiləşmənin hansı sürətlə davam etməsi, nəticə etibarilə, bəşəriyyətin qlobal qazıntı yanacağı $CO_2$ emissiyalarını nə qədər tez sıfıra endirə biləcəyi ilə müəyyən edilir”.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4998**
**Sifariş: 352**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova